

**Dmitri Kobitski: "Nəinki MDB, hətta Avropa ölkələri Azərbaycanın inkişafına həsəd aparırlar"**

3

# Bölgələrin inkişafı daima dövlətin diqqət mərkəzindədir

№ 223 (6423) 7 dekabr 2021-ci il. Qiymıti 40 qəpik



2

## Prezident İlham Əliyev,

birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfər ediblər

## Erməni bloger Nairi: "Erməni komandirlər qəbirlərdə qızıl diş axtarırdılar"



Ermənistandan Niderlanda köçmüş erməni blogeri, tərcüməçisi və publisisti Nairi Axverdi özünün "Tvitter" səhifəsində İrəvanın işğalçı və təcavüzkar siyasəti barədə yazıb. O, erməni səhra komandirlərinin və silahlılarının Birinci Qarabağ müharibəsində törətdikləri vəhşilikləri barədə ifşalar edib. SİA-nın verdiyi xəbərə görə, Nairi qeyd edib ki, erməni komandirləri qızıl diş axtarışı üçün azərbaycanlıların qəbirlərini açmaq və dağıtmaq əmrlərini...

5

## "İki qardaş ölkənin liderləri tərəfindən irəli sürülən təşəbbüslər qlobal cəmiyyətdə böyük imkanlar yaradır"



Hər il keçirilən Boğaziçi Sammiti bu gün regionda və ümumiyyətlə beynəlxalq aləmdə çox önəm daşıyan iqtisadi-siyasi platformadır. Bu Sammitdə adətən iş adamları, siyasətçilər, vətəndaş cəmiyyəti institutları bir araya gələrək bəşəriyyət qarşısında, regionda olan əhəmiyyətli məsələləri müzakirə edir, bununla əlaqədar müəyyən əməkdaşlıqlar yaradaraq bu problemlərin həlli istiqamətində fəaliyyət göstərirlər. Builki Sammitin hər birim...

4

## Üçüncü Dünya müharibəsi başlaya bilər: NATO müharibəyə qoşulur!






## "Zəfər paradı dünyaya bir mesaj verdi"

7

## Rusiyalı həkimdən ŞOK açıqlama: Bu içki kişini qadına çevirir!



Rusiyalı həkim Aleksey Kovalkov bildirib ki, pivənin müntəzəm istehlakı kişi orqanizmini dəyişir və onu qadın orqanizminə bənzətməyə başlayır. Rusiyanın nüfuzlu mətbuat orqanlarının yazdığına görə, pivənin tərkibində olan maddələr kişi orqanizmində testosteronun ifrazını...

16



## Maaş, pensiya və təqaüdlər nə qədər artacaq?

11

"Gələn il əməkhaqqı orta hesabla 40-50 faiz, pensiyaların həcmində orta hesabla 40-45 manat artım olacaq". "İki sahil"...



## Yeni il yarmarkalarında qiymətlər necədir?

11

Bu il bir çox metrostansiyaların çıxışında yeni il yarmarkaları qurulub. Bayram yaxınlaşdıqca müxtəlif bəzək əşyalarına...

# Bölgələrin inkişafı daima dövlətin diqqət mərkəzindədir

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfər ediblər



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfər ediblər. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.**

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dünən Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanış olublar.

Məlumat verildi ki, yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra obyektin bazasında Quba İstirahət, İdman, Təlim və Tədris Kompleksi yaradılıb. Layihənin özünəməxsusluğu ondan ibarətdir ki, burada istirahət, idman, təlim və tədris bir məkanda cəmləşib. Həmçinin bu cür komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir.

Quba universal kompleksində 200-250 işçinin çalışacağı nəzərdə tutulur. Onların mütləq əksəriyyətini yerli sakinlər təşkil edəcək. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva kompleksdəki 340 tamaşaçı yerlik üzgüçülük hovuzu, 6600 tamaşaçı yerlik futbol stadionu, Şahmat Mərkəzi və otellə tanış oldular.

Bildirildi ki, kompleksin təlim və tədris hissəsində maliyyə sektoru prioritet olmaqla, bank, sığorta və kapital bazarları iştirakçıları üçün məşğələlər keçiriləcək. İlkin mərhələdə isə personalın xidmət səviyyəsinin yüksəldilməsi üçün proqramların təşkili nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış olublar. Təhsil müəssisəsində görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Birinci Nügədi kənd 1 nömrəli tam orta məktəbin əvvəlki binası 1971-ci ildə inşa olunmuşdu və son illər tam yararsız vəziyyətdə idi. İndi isə şagirdlər Heydər Əliyev Fondu tərəfindən inşa olunmuş tam yeni məktəbdə təhsillərini davam etdirəcəklər. Müasir standartlara cavab verən yeni məktəbin inşası keyfiyyətli və bərabərhüquqlu təhsil imkanının yaradılması deməkdir.

Birinci Nügədi kənd orta məktəbin şagirdləri indiyədək müxtəlif fənn olimpiadalarında müvəffəqiyyət qazanıb, məzunlar yüksək balla ali məktəblərə qəbul olublar. Təkcə son 4 ildə məktəbin 5 şagirdi 600-dən çox balla tələbə adını qazanıb. Dövlətimizin başçısı, birinci xanım və qızları yeni məktəbin sinif otaqlarını, fənn kabinetlərini gəzdilər.

> “Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik”





Prezident İlham Əliyev dünən həmçinin Quba-Qonaqkənd avtomobil yolunun açılışını da edib. 46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişi təmin olunur. Bu yol uzun illər əsaslı təmir olunmadığı üçün hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Bu isə yolda nəqliyyatın hərəkətini çətinləşdirirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Qubanın Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanış olublar. 2020-ci ildən etibarən Qonaqkənd qəsəbəsində kompleks abadlıq və quruculuq işləri həyata keçirilib. Qəsəbədə ümummilli lider Heydər Əliyevin abidəsinin ətrafında yeni park salınıb. Həmçinin qəsəbə Mədəniyyət Evinin istifadəyə yararsız, qəzalı vəziyyətdə olan binası sökülərək əvəzində yenisi tikilib.




Ardı Səh. 3

# Bölgələrin inkişafı daima dövlətin diqqət mərkəzindədir

Əvvəli Səh. 2

Dövlətimizin başçısı, birinci xanım və qızları Mədəniyyət Evi ilə tanışlıqdan sonra qəsəbə sakinləri ilə görüşüblər.

Dövlətimizin başçısı əhali ilə görüşündə qeyd edib ki, Qarabağ müharibəsində qazanılan tarixi qələbə bizim hamımızın Qələbəsidir. Hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə, öz işi ilə o müqəddəs günü yaxınlaşdırırdı: "Biz bütün işğal dövründə Qarabağı ürəyimizdə saxlamışdıq və Qarabağı görməyən gənc nəsil yetişdi. Onlar Qarabağı canı-qanı bahasına azad etdilər. Tarixi ədaləti bərpa etdik, xalqımızın ləyaqətini bərpa etdik. İndi isə artıq yeni dövr başlayır. Quruculuq işləri, həm Qarabağda, həm də Zəngəzurda aparılır. Eyni zamanda, bizim son vaxtlar apardığımız işlər onu göstərir ki, hər hansı bir revanşist meyil olarsa, onun məsələsi dərhal yerindəcə həll olunacaq. Çünki müharibədən sonra Ermənistan tərəfindən bir neçə dəfə belə cəhdlər oldu və onun acı nəticələrini onlar özləri gördülər. Ona görə hələ ki, gec deyil, mən onlara artıq dəfələrlə müraciət edərək demişdim, bizim şərtlərimizi qəbul etməlidirlər, yollarla, kommunikasiyalarla bağlı hər hansı bir qeyri-səmimi yanaşmaya son qoyulmalıdır. Əgər belə olarsa, onda Cənubi Qafqazda bütün xalqlar sülh, əmin-amanlıq şəraitində yaşayacaq. Çünki biz istədiyimizə nail ola bilmişik, bunu hər kəs gördü.

> "Hər hansı bir revanşist meyil olarsa, onun məsələsi dərhal yerindəcə həll olunacaq"









Ermənistan da gördü, dünya da gördü, heç kim bizi saxlaya bilmədi. Müharibə dövründə bizi saxlamaq istəyənlər olub, kifayət qədər güclü dairələr olub, amma bizi dayandıra bilmədilər. Mən demişdim ki, bizə tarix versinlər torpaqlarımızdan nə vaxt çıxır, o an biz dayanmağa hazırıq. Bu gün də eyni sözü deyirəm. Amma deyirəm ki, bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda, heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir. Biz istədiyimizə nail olmuşuq, oluruq və olacağıq. Yaxşı olar ki, bu məsələ konstruktiv şəkildə danışıqlar yolu ilə, qarşılıqlı anlaşma yolu ilə həll olunsun. Çünki İkinci Qarabağ müharibəsi bütün dünyaya xalqımızın iradəsini, gücünü və birliyini göstərdi. Yol boyunca gələndə gördüm, şəhidlərin şəkilləri vurulub. Hər bir yerdə belədir, - mən son vaxtlar Qarabağ bölgəsinə tez-tez gedirəm, - kəndlərdə şəhidlərin şəkilləri vurulub. Yəni, bu Zəfəri bütün Azərbaycan xalqı əldə edib.

## Dmitri Kobitski: "Nəinki MDB, hətta Avropa ölkələri Azərbaycanın inkişafına həsəd aparırlar"



"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan inanılmaz dərəcədə sürətlə inkişaf edir. Nəinki Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvləri, hətta Avropa ölkələri Azərbaycanda gedən inkişafa yaxşı mənada həsəd aparırlar. Müsbət haldır ki, Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında münaqişəyə artıq son qoyulub. Üçtərəfli Bəyanat imzalanıb və tərəflər arasında sülh razılaşması ilə bağlı müzakirələr aparılır. Regionda sülhün və sabitliyin bərpası üçün sülh razılaşmasının imzalanması çox vacibdir."

Bu fikirləri MDB iştirakçısı olan dövlətlərin Parlament Assambleyası (PA) Şurasının Baş katibi Dmitriy Kobitski jurnalistlərə müsahibəsində söyləyib.

O bildirib ki, MDB PA-nın Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (DİMBİ) Bakı filialının ofisinin istifadəyə verilməsi bizim ümumi işimizin səmərəliliyini daha da artıracaq. MDB PA-nın iştirakçısı olan dövlətlər arasında sıx əlaqələrin olduğunu vurğulayan Dmitriy Kobitski deyib: "Biz ildə iki dəfə görüşürük, fikir mübadiləsi aparırıq. MDB PA və Şurası birgə monitorinqlər keçirir, deputatlar MDB ölkələrinin seçkilərində müşahidəçi qismində çıxış edirlər. Bu da demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarına riayət olunması məsələlərində təcrübənin öyrənilməsinə müsbət təsir göstərir".

Əlaqələrin genişləndirilməsində Rusiya və Azərbaycan dövlət başçılarının, parlament rəhbərlərinin görüşlərinin əhəmiyyətli rol oynadığını diqqətə çatdıran Baş katib bildirib ki, ölkələrimiz arasında mövcud sıx münasibətlərin, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının və MDB Parlament Assambleyası Şurasının sədri Valentina Matviyenko ilə Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovanın birgə əməkdaşlığı mühüm rol oynayır.

Dmitriy Kobitski əlavə edib ki, MDB-yə üzv ölkələrin Gənclər Parlamentlərarası Assambleyası da fəaliyyət göstərir və Assambleyanın nümayəndə heyətinə Azərbaycan Milli Məclisinin deputatı Emin Hacıyev rəhbərlik edir. Gənclər və uşaqlar arasında bir sıra maraqlı layihələrin həyata keçirildiyini qeyd edən Baş katib bu layihələrdən birinin uşaqlara həsr olunduğunu diqqətə çatdırıb. Həmin layihə ilə bağlı ilk təşəbbüsün Qırğızıstan parlamenti tərəfindən irəli sürüldüyünü deyən D.Kobitski hazırda bu layihənin nəinki Qırğızıstanda, digər MDB ölkələrində də keçirildiyini bildirib. Bu il layihənin Rusiyanın Sankt-Peterburq şəhərində reallaşdığını deyən MDB PA Şurasının Baş katibi təşəbbüs olacağı təqdirdə belə bir layihənin Azərbaycanda da təşkil olunacağının mümkünlüyünü qeyd edib.

# Azərbaycan İstanbulda keçirilən XII Boğaziçi Sammitində təmsil olunur






**Dekabrın 6-da İstanbulda XII Boğaziçi Sammiti işə başlayıb. Builki Sammit ”Daha yaxşı dünya naminə çağırışlar” mövzusunda baş tutub.**

Beynəlxalq Əməkdaşlıq Platforması (UİP-İCP) tərəfindən təşkil edilən tədbirdə ölkəmiz Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən təmsil olunur.

Tədbirin açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakçılara müraciəti oxunub.

Müraciətində tarixin ən böyük səhiyyə böhranlarından biri olan COVID-19 pandemiyası zamanı beynəlxalq ictimaiyyətin, xüsusilə inkişaf etmiş ölkələrin bu imtahandan yaxşı çıxa bilmədiyini vurğulayan türkiyə Prezidenti pandemiyanın xüsusilə az inkişaf etmiş ölkələrdə çox ciddi humanitar böhranlara yol açdığını qeyd edib. Məhz bu səbəbdən humanitar və iqtisadi sahələrdə də ədalətli nizamın qurulmasının vacibliyini bildirib.

Sammitdə Azərbaycanla yanaşı, Pakistan, Meksika, İngiltərə, Belçika, Danimarka da daxil olmaqla, dünyanın 49 ölkəsindən təmsilçilər iştirak edirlər.

Tədbir çərçivəsində ”Türkiyə-Azərbaycan İqtisadi Əməkdaşlıqları-İş dünyasının perspektivləri” mövzusunda panel iclası keçiriləcək.

Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin (TAİB) rəhbəri Nəslihan Tombulun moderatorluğu ilə baş tutacaq iclasın fəxri qonağı Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovdur.

İclasda Türkiyənin ”Yeni yüz il” Universitetinin rektoru, professor Yaşar Hacısalehoğlu, ölkəmizin İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza, ”SOCAR Türkiyə”nin Kommunikasiya və dövlət ilə əlaqələr üzrə rəhbəri Mikayıl Yusifovun iştirakı nəzərdə tutulur.



İki gün davam edəcək Sammitdə ”Daha yaxşı bir dünya üçün çalışmaq” mövzusunda dəyirmi masa, ”Virtual və real dünyanın müdafiə sənayesi”, ”Effektiv idarə heyəti ilə şirkətlərin yaxşı idarə edilməsi və innovasiyası”, ”Yaşıl enerji”, ”Bank işi və maliyyə”, ”Texnologiya iqlim dəyişikliyi problemini həll edə bilərmi?”, ”Qadın, iqtisadiyyat, elm və hüquq”, ”Türkiyə hazır geyim sənayesinin dəyişmə və çevrilmə prosesi” və digər mövzularda panel iclasları keçiriləcək.

Qeyd edək ki, YAP nümayəndə heyətinə Milli Məclisin deputatı Ramil Həsən daxildir.

## “İki qardaş ölkənin liderləri tərəfindən irəli sürülən təşəbbüslər qlobal cəmiyyətdə böyük imkanlar yaradır”



Hər il keçirilən Boğaziçi Sammiti bu gün regionda və ümumiyyətlə beynəlxalq aləmdə çox önəm daşıyan iqtisadi-siyasi platformadır. Bu Sammitdə adətən iş adamları, siyasətçilər, vətəndaş cəmiyyəti institutları bir araya gələrək bəşəriyyət qarşısında, regionda olan əhəmiyyətli məsələləri müzakirə edir, bununla əlaqədar müəyyən əməkdaşlıqlar yaradaraq bu problemlərin həlli istiqamətində fəaliyyət göstərirlər. Builki Sammitin hər birimiz üçün çox vacib olan ”Daha yaxşı dünya naminə çağırışlar” mövzusu yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsindən ibarətdir.

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov İstanbulda keçirilən XII Boğaziçi Sammiti çərçivəsində AZƏRTAC-a açıqlamasında bildirib.

Sammit çərçivəsində Azərbaycan-Türkiyə münasibətlərinə həsr olunan panelin keçiriləcəyini xatırladan YAP Sədrinin müavini deyib: ”Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycanın da, Türkiyənin də dünya siyasətində rolu ildən-ilə artır. Xüsusilə də Vətən müharibəsindən sonra regionda yaranan geostrateji vəziyyət və bu reallıqlardan irəli gələrək həm Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, həm də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın irəli sürdükləri bir çox təşəbbüslər nəinki regiondakı ölkələr və xalqlar üçün, ümumiyyətlə, daha geniş mənada, Avrasiya məkanında böyük perspektivlər, böyük imkanlar yaradıb. Ümumiyyətlə, Türkiyə ilə Azərbaycanın əməkdaşlığı, qardaşlığı və hətta son Şuşa Bəyannaməsindən sonra müttəfiqliyə yüksələn strateji tərəfdaşlıq münasibətləri nəinki iki ölkə xalqlarına, iki ölkəyə öz xeyrini, öz dividentlərini gətirir, eyni zamanda, bu münasibətlər bölgədə, hətta Avropada enerji təhlükəsizliyi baxımından böyük rol oynayır. Artıq bu ölkələr üçün bizim tarixi əlaqələrimiz bir çox nailiyyətlərlə yadda qalıb. Bilirsiniz ki, Azərbaycanla Türkiyə birlikdə bir çox qlobal enerji, nəqliyyat-kommunikasiya layihələrini həyata keçirib. Bunların sırasında Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini, Bakı-Tbilisi-Qars dəmir yolu xəttini, TAP və TANAP layihələrini qeyd etmək lazımdır. Hazırkı vəziyyətdə ən əsası isə qarşıda duran və perspektivdə nəzərdə tutulan layihələrin həyata keçirilməsidir. İlk növbədə, Zəngəzur dəhlizinin açılması bu regionda yeni imkanların, yeni iqtisadi reallıqların yaranmasına təkan verəcək ki, bu da Azərbaycanla yanaşı, Türkiyənin də tranzit potensialının artırılmasına və bu dəhliz vasitəsilə daha çox iqtisadi-ticari əlaqələrin qurulmasına, eləcə də, ümumiyyətlə, regionda yeni iqtisadi modelin yaranmasına səbəb olacaq. Hazırda bu istiqamətdə işlər gedir”.

Qırx dörd günlük Vətən müharibəsindən sonra tarixi Qarabağ torpağımızda dövlətimiz tərəfindən aparılan bərpa-yenidənqurma işləri barədə danışan Tahir Budaqov deyib: ”Azərbaycan işğaldan azad etdiyi ərazilərdə böyük quruculuq işlərinə başlayıb və artıq Böyük Qayıdışa hazırlıq prosesi həyata keçirilir. Prezidentimiz İlham Əliyev dəfələrlə bu prosesdə Azərbaycana qardaş və dost olan ölkələrin iş adamlarını da investisiya yatırımlarına, bərpa prosesində yaxından iştirak etməyə dəvət edib. Düşünürəm ki, bu platforma vasitəsilə də müəyyən mesajlar burada toplanan böyük auditoriyaya çatdırılacaq. Düşünürük ki, bu məsələlərdə Azərbaycana yaxın və dost ölkələr Azərbaycanın bundan sonrakı haqq işində də, inkişaf prosesində də yaxından iştirak edəcəklər. Eyni zamanda, təbiidir ki, Azərbaycanın bu gün böyük iqtisadi potensialından, onun siyasi çəkisindən digər ölkələr də kifayət qədər bəhrələnmək imkanı əldə edəcəklər”.

# Helikopter qəzasında
## şəhid olanların ailələrinə kompensasiya veriləcək

Noyabrın 30-da Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən ”Qaraheybət” aviasiya poliqonunda təlim uçuşları zamanı qəzaya uğraması nəticəsində şəhid olan hərbçilərin vərəsələrinə birdəfəlik 11 min manat sığorta ödənişi nəzərdə tutulur. SİA-nın məlumatına görə, bunu Azərbaycan Sığortaçılar Assosiasiyası İctimai Birliyinin İcraçı direktoru Elmar Mirsalayev jurnalistlər açıqlamasında deyib.



O qeyd edib ki, qəza zamanı xəsarət almış hərbçilərimizin əlillik dərəcəsinə uyğun sığorta ödənişləri nəzərdə tutulur: ”Birinci əlillik dərəcəsinə 8800 manat, ikinci əlillik dərəcəsinə 6600 manat və üçüncü əlillik dərəcəsinə 4400 manat birdəfəlik sığorta ödənişləri nəzərdə tutulur. Əgər əllik yoxdursa xəsarət varsa, xəsarət iki kateqoriyadan ibarətdir. Ağır xəsarətə görə 2750 manat birdəfəlik sığorta ödənişi, yüngün xəsarətə görə 550 manat birdəfəlik sığorta ödənişi nəzərdə tutulur. Bu ödənişlər Dövlət Sığorta Kommersiya Şirkəti tərəfindən həyata keçirilir”.

# Əziz Səncər: “Söz vermişdim ki, Şuşa azad edilsə, orada məsciddə namaz qılacam”



“İkinci Qarabağ müharibəsi və qazanılan zəfər Türkiyənin qurtuluş savaşından sonra türk dünyasının ən böyük qələbəsidir. Qazanılan zəfərdən böyük xoşbəxtlik yaşadım. 44 gün davam edən Vətən müharibəsini hər gün izləyirdim”.

SİA xəbər verir ki, bunu Kimya üzrə Nobel mükafatı laureatı, dünya şöhrətli alim, professor Əziz Səncər Bakıda keçirdiyi mətbuat konfransında deyib. O xatırladıb ki, Şuşa Azərbaycanın mədəniyyət paytaxtı elan edilib: ”Özümə söz vermişdim ki, Şuşa azad edilsə, orada məsciddə namaz qılacam ki, ölsəm gözüm arxada qalmasın. Allaha çox şükür ki, arzumu yerinə yetirdim”.

# “Postkonflikt dövründə Cənubi Qafqazda təşəkkül tapan reallıqlar regionda bütün xalqların və dövlətlərin maraqlarına cavab verir”

**Boğaziçi Sammiti regional və beynəlxalq səviyyələrdə mötəbər platforma kimi tanınır. Bu platforma vasitəsilə təşkil olunan görüşlər, toplantılar bölgədə investorları, sahibkarları və siyasətçiləri bir araya gətirərək müxtəlif layihələrin həyata keçirilməsini, regional iqtisadi siyasətin və ticarət diplomatiyasının genişləndirilməsini təşviq edir. Bu isə çoxşaxəli, fəal əməkdaşlığın gücləndirilməsinə, dövlət və özəl sektor arasında tərəfdaşlığın dərinləşdirilməsinə vacib töhfə verir.**

Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov İstanbulda keçirilən XII Boğaziçi Sammiti çərçivəsində təşkil olunan ”Türkiyə-Azərbaycan İqtisadi Əməkdaşlıqları-İş dünyasının perspektivləri” mövzusunda panel iclasında çıxışı zamanı ifadə edib.

Sammitin işinə uğurlar arzulayan YAP Sədrinin müavini Tahir Budaqov tədbir çərçivəsində təşkil edilən müzakirələr zamanı səmərəli fikir mübadiləsi aparılacağına, iştirakçıların yeni ideya və təşəbbüslərdən faydalanmaq şansı qazanacağına ümidvar olduğunu bildirib.






Sammitin builki əsas mövzusu ”Daha yaxşı dünya naminə çağırışlar” adlanır. Bunun təkcə region dövlətləri, güc mərkəzləri üçün deyil, bütövlükdə bütün xalqlar, bəşəriyyət üçün aktual məsələləri özündə ehtiva etdiyini bildirən YAP Sədrinin müavini deyib: ”Şübhəsiz ki, daha yaxşı dünya naminə fəaliyyətdə, ilk növbədə, sosial və siyasi məsuliyyət prinsipləri əsas götürülməlidir. Bu istiqamətdə milli dövlətlərin roluna və vəzifələrinə gəlincə, hər bir ölkə, əsas etibarilə beynəlxalq birliyin məsuliyyətli üzvü kimi hərəkət etməli, sülhə, təhlükəsizliyə, əməkdaşlığa, həmrəyliyə, mehriban birgəyaşayışa əsaslanan siyasət həyata keçirməlidir. Bu məsələnin Azərbaycan təcrübəsi ilə əlaqədar bir sıra zəruri - vacib məqamları diqqətə çatdırmaq istəyirəm”.

Azərbaycanın dünyada etibarlı tərəfdaş, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verən güclü dövlət, tolerantlıq nümunəsi və multikulturalizm diyarı kimi tanındığını xatırladan YAP Sədrinin müavini ölkəmizin regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa xidmət edən mühüm layihələr həyata keçirdiyini vurğulayaraq bildirib: ”Cənubi Qafqazın aparıcı dövləti olan Azərbaycanın liderliyi, fəal təşəbbüsləri və moderatorluğu ilə regional miqyaslı, qlobal əhəmiyyətli layihələrin gerçəkləşdirilməsi nəticəsində Avrasiyanın yeni enerji və nəqliyyat xəritəsi yaranıb. Bununla yanaşı, respublikamız qlobal problemlərin həlli, beynəlxalq həmrəyliyin gücləndirilməsi naminə səylərin birləşdirilməsi üçün mühüm təşəbbüslər irəli sürür. Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizə sahəsində addım və təşəbbüslərinin, ”peyvənd millətçiliyi”nə qarşı çağırışlarının beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsi bu baxımdan xüsusi qeyd edilməlidir. Eyni zamanda, Azərbaycan BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı və digər təşkilatlarda nümunəvi fəaliyyəti çərçivəsində beynəlxalq problemlərin həllində olduqca fəal rol oynamaqdadır. Bütün bunlar isə Azərbaycanın daha yaxşı dünya üçün mühüm töhfələrindən biridir. Fürsətdən istifadə edərək Azərbaycanın haqq işinə - ərazi bütövlüyünə dəstək olan bütün ölkələrə, xüsusilə qardaş Türkiyəyə minnətdarlığımızı bildirirəm”.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfəri xatırladan Tahir Budaqov ölkəmizin bu Qələbəni qazanaraq tarixi ədaləti bərpa etməklə yeni reallıqlar formalaşdırdığını bildirib. O deyib: ”Bu geostrateji reallıqlar, ilk növbədə, regionda etibarlı təhlükəsizlik mühitinin, dayanıqlı sülhün və çoxşaxəli əməkdaşlığın təmin olunmasına zəmin yaradır, həmçinin Azərbaycanın iqtisadi imkanlarının artmasına, ikitərəfli münasibətlərinin inkişafına və beynəlxalq mövqeyinin möhkəmlənməsinə təkan verir. Postkonflikt dövründə Cənubi Qafqazda təşəkkül tapan reallıqlar təkcə respublikamızın deyil, regionda bütün xalqların və dövlətlərin maraqlarına cavab verir. Xüsusilə də Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş formatda unikal əməkdaşlıq imkanlarının formalaşması deməkdir. Paralel olaraq hazırda işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın həyata keçirilməsi strateji prioritet kimi müəyyənləşdirilib. İşğaldan azad olunmuş ərazilərdə abadlıq-quruculuq və yenidənqurma işlərinin aparılması, yeni investisiya mühitinin formalaşması da geniş beynəlxalq əməkdaşlığın təmin edilməsi baxımından olduqca əhəmiyyətlidir. Bütün bunlar isə nəticə etibarilə həm Azərbaycanın, həm də regionda digər siyasi subyektlərin, o cümlədən dost və tərəfdaş ölkələrin iqtisadi resurslarının genişləndirilməsi, beləliklə də daha yaxşı dünya naminə əlavə imkanların formalaşması deməkdir”.

”Xüsusi olaraq qeyd etmək istəyirəm ki, dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri, iki qardaş ölkənin birgə təşəbbüsləri postmüharibə dövründə regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır”, - deyə YAP Sədrinin müavini vurğulayıb: ”Ümumiyyətlə, Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri, qardaşlığı bütün sahələrdə əməkdaşlığa, görülən işlərə öz töhfəsini verməkdədir. Bütövlükdə, Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bu gün regionda mühüm bir faktordur. Postkonflikt mərhələsində iki ölkənin tərəfdaşlığı bölgədə sülh və təhlükəsizlik mühitinin möhkəmlənməsi, çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsi və inteqrasiyanın sürətlənməsi baxımından böyük əhəmiyyətə malikdir. Bu isə regional sabitlik və işbirliyi fonunda xalqların, dövlətlərin maraqlarına xidmət edən amil kimi daha yaxşı dünya naminə fəaliyyətdə mühüm əhəmiyyətə malikdir”.

Bir daha Sammitin işinə uğurlar diləyən Tahir Budaqov toplantının bütün iştirakçılar üçün faydalı və səmərəli olmasını arzulayıb.

# İstanbulda keçirilən beynəlxalq sammitdə vandalizm aktlarından danışılıb



İstanbulda ”Daha yaxşı dünya naminə çağırışlar” mövzusunda keçirilən XII Boğaziçi Sammiti çərçivəsində ”Türkiyə-Azərbaycan iqtisadi əməkdaşlıqları-iş dünyasının perspektivləri” mövzusunda panel iclası təşkil olunub. SİA-nın məlumatına görə, Türkiyədəki Azərbaycanlı İş Adamları Birliyinin (TAİB) rəhbəri Nəslihan Tombulun moderatorluğu ilə baş tutan iclasın fəxri qonağı Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov olub. Panel iclasında Azərbaycanın 30 ilə yaxın işğal altında qalan və 44 günlük Vətən müharibəsi nəticəsində azad edilən tarixi torpaqlarında ermənilər tərəfindən törədilən vandalizm aktları, ərazilərimizin minalanması kimi məsələlərə toxunulub.

Türkiyə-Azərbaycan münasibətlərindən də bəhs olunan iclasda iki qardaş ölkə arasındakı əlaqələr və əməkdaşlıqlar haqqında məlumat verilib. Bildirilib ki, ölkələrimizin münasibətlərində ən əhəmiyyətli rollardan birini Türkiyədə ən böyük xarici investor olan Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) oynayır. On üç illik qısa zaman ərzində SOCAR Türkiyədə ən böyük şirkətlərdən birinə çevrilib. Sonra mövzu ilə bağlı müzakirələr aparılıb.

Qeyd edək ki, iclasda ölkəmizin İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Mətyu Brayzə, ”SOCAR Türkiyə”nin Kommunikasiya və dövlət ilə əlaqələr üzrə rəhbəri Mikayıl Yusifov, ”Hünər Qrup” Holdinqin İdarə Heyətinin sədri Ehtiram Quliyev iştirak ediblər. İki gün davam edən Sammitdə Azərbaycan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti tərəfindən təmsil olunur.

# Erməni bloger Nairi:
## “Erməni komandirlər qəbirlərdə qızıl diş axtarırdılar”



Ermənistandan Noderlanda köçmüş erməni blogeri, tərcüməçisi və publisisti Nairi Axverdi özünün ”Tvitter” səhifəsində İrəvanın işğalçı və təcavüzkar siyasəti barədə yazıb. O, erməni səhra komandirlərinin və silahlılarının Birinci Qarabağ müharibəsində törətdikləri vəhşilikləri barədə ifşalar edib. SİA-nın verdiyi xəbərə görə, Nairi qeyd edib ki, erməni komandirləri qızıl diş axtarışı üçün azərbaycanlıların qəbirlərini açmaq və dağıtmaq əmrlərini veriblər. Onun sözlərinə görə, Ermənistanın liderləri erməni ictimaiyyətini güclü şəkildə aldadaraq bu gün sadə xalqın əziyyət çəkməsinə səbəb olublar.

”Bizim liderlər bizi aldadıb. Bu, 7 rayonun etnik təmizlənməsindən bixəbər olan, kobudluq üzərində tərbiyə almış bir çox gənc ermənilər silkələyib və bu tarix asanlıqla azadlıq şüarları altındakı yalançı vətənpərvərliklərlə gizlədilib”, deyə Nairi Axverdi bildirib. ”Birinci Qarabağ müharibəsində döyüşmüş ermənilər tez-tez nələrdən keçdiklərini etiraf edirlər. Bir veteran mənə danışıb ki, onun komandiri azərbaycanlıların qəbirlərini qazıb, qızıl diş axtarmağımı əmr edib. O bildirib ki, komandirin acgözlüyünü və döyüş yoldaşlarının əməllərini dəhşətə gələrək izləyib”.

***Rövşən RƏSULOV***

# Tahir Budaqov:

## Azərbaycan və Ukraynanın iqtisadi əlaqələrində istifadə olunmamış böyük potensial var

**Ukrayna Ticarət və Sənaye Palatasının prezidenti Gennadi Çijikov bu ölkədə səfərdə olan Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Ukrayna arasında iqtisadi-ticari əlaqələrin perspektivləri müzakirə edilib.

Ukraynanın Azərbaycanla iqtisadi əlaqələrin inkişafında maraqlı olduğunu deyən Gennadi Çijikov bildirib ki, ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə dinamik əməkdaşlıq davam edir. Hər iki ölkə enerji, sənaye, kənd təsərrüfatı sahələrində birgə layihələr reallaşdırır. Azərbaycanla Ukrayna arasında ticarət dövriyyəsi artmaqdadır, lakin bu rəqəm mövcud potensialı əks etdirmir. Ona görə də hər iki ölkənin şirkətlərinin qarşılıqlı investisiya yatırımının artırılması istiqamətində işlər davam etdirilməlidir. Ukraynanın ərzaq və qeyri-ərzaq məhsullarının istehsalına görə Avropa ölkələri arasında öncül yerlərdən birini tutduğunu deyən Gennadi Çijikov vurğulayıb ki, Ukrayna Azərbaycan vasitəsilə üçüncü ölkələrə, o cümlədən İran bazarına çıxa bilər. Bu işdə birgə layihələr həyata keçirmək olar.

İşğal altındakı torpaqlarımızın azad olunması münasibətilə təbriklərini çatdıran Gennadi Çijikov deyib ki, Ukrayna şirkətləri bu ərazilərin bərpa və yenidənqurma işlərində iştirak edə bilərlər. Onların bu istiqamətdə böyük təcrübəsi var.

Azərbaycan və Ukraynanın ümumi tarixə malik olduğunu xatırladan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov vurğulayıb ki, iki ölkə arasında strateji tərəfdaşlıq münasibətləri mövcuddur.

"Azərbaycan və Ukraynanın iqtisadi əlaqələrində istifadə olunmamış böyük potensial var. Ticarət dövriyyəsinin artmasına baxmayaraq, mütləq rəqəmlər bizi qane









edə bilməz", - deyə Tahir Budaqov əlavə edib.

Azərbaycan və Ukraynanın bir-birinin ərazi bütövlüyünü dəstəklədiyini deyən YAP Sədrinin müavini 44 günlük Vətən müharibəsində ölkəmizin haqlı mübarizəsini müdafiə etdiyi üçün Ukrayna dövlətinə təşəkkürünü bildirib.



"Azərbaycanın işğaldan azad edilən əraziləri demək olar tamamilə dağıdılıb. Hazırda orada bərpa və yenidənqurma işləri aparılır. Artıq magistral yollar çəkilib, Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib, dini və tarixi abidələr bərpa edilib. Şuşa şəhərində beynəlxalq festivallar keçirilib. Prezident İlham Əliyevin söylədiyi kimi, Azərbaycana dost ölkələr işğaldan azad olunan ərazilərimizin bərpa işlərində iştirak edə bilərlər. Biz Ukrayna şirkətlərini işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurma işlərində iştiraka dəvət edirik", - deyə Tahir Budaqov vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında da geniş müzakirələr aparılıb.



Sonra YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyəti Kiyevin "UNIT.City" İnnovasiya Parkında yaradılan şəraitlə tanış olub.

Qonaqlara məlumat verilib ki, "UNIT.City" Ukraynanın ilk innovasiya parkıdır. Park Mərkəzi və Şərqi Avropada İT və texnologiya şirkətləri üçün infrastruktur və innovasiya ekosistemini birləşdirən ən böyük platformalardan biridir. "UNIT.City" 25 hektar ərazidə yerləşir. İnnovasiyalar parkı müxtəlif təyinatlı daşınmaz əmlakın bütöv blokunu təşkil edir. Buraya ofislər, yaşayış sahələri, innovativ təhsil müəssisələri, R&D mərkəzləri, VR və AR laboratoriyaları, 3D çap və aşqarların istehsalı üçün müəssisələr daxildir.

Qeyd edək ki, YAP nümayəndə heyətinin üzvləri - partiyanın Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova, YAP Veteranlar Şurasının sədr müavini Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, YAP İdarə Heyətinin üzvü, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Milli Məclisin deputatı Ramil Həsən, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, partiyanın Mərkəzi Aparatının beynəlxalq əlaqələr şöbəsinin baş məsləhətçisi Hülya Məmmədli, Azərbaycanın Ukraynadakı səfirliyinin müşavirləri Kamal Xəlilov və Sabir Rzayev, Ukrayna Azərbaycanlıları Radasının həmsədri, Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporunun sədri Hikmət Cavadov da tədbirlərdə iştirak ediblər.

# Azərbaycan dünyada qurucu dövlət kimi tanınır

**İlham Əliyev: "Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik"**

**Bəli, 44 günlük Vətən müharibəsində əldə edilən qələbədən bir ildən çox zaman keçməsinə baxmayaraq bu qısa zamanda ölkəmizin həyatında yeni dövr başlayıb. Dövlət başçımızın dediyi kimi: ”Bu miqyasda dağıntıdan inkişafa doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik”.**

Bəli, bu gün Azərbaycan işğaldan azad olunmuş torpaqlarımızda apardığı quruculuq, bərpa işləri ilə dünyada nadir təcrübə nümayiş etdirməkdədir. Ən əsası isə, xalq görülən işlərin şahidi olur, Qalib Liderimizin gördüyü işləri bəyənir, dəstəkləyir. Bütün bu irimiqyaslı tarixi proses Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətimizin yeritdiyi qətiyyətli, uzaqgörən siyasət, bütün xalqın maraqlı olduğu ümummilli bir hədəfdir.

### TARİXİ ZƏFƏR SAYƏSİNDƏ ƏLDƏ ETDİYİMİZ YENİ DÖVRÜN REALLIQLARI - BÖYÜK QAYIDIŞDAN QURUCULUĞA DOĞRU

Bu gün tarixi Zəfər sayəsində əldə etdiyimiz yeni dövrün reallıqları həm Böyük Qayıdışın başlanmasını sürətləndirir, həm də Azərbaycanı dünyaya əsl qurucu dövlət kimi tanıdır. Artıq ölkəmizin siyasi və iqtisadi potensialı Qarabağda işğaldan azad edilmiş ərazilərin tam dirçəlişinə hədəflənmişdir. Artıq Şuşa, Ağdam, Füzuli, Cəbrayıl şəhərlərinin baş planları təqdim olunub, digər şəhərlərdə də bu iş sürətlə davam etdirilir. Dövlətimizin başçısının iştirakı ilə Şuşa, Ağdam, Füzuli, Cəbrayıl rayonlarının ərazilərində salınacaq yaşayış binalarının, Ağdam Sənaye Parkının, ”Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının təməli qoyulub, buraya potensial rezident və investorların cəlb edilməsi istiqamətində sahibkarlarla və dövlət qurumları ilə müvafiq iş aparılıb.

Son bir il müddətində artıq Qarabağda 11 istiqamətli avtomobil yolu çəkilir, 3 hava limanı, 3 dəmiryolu tikilir, kommunikasiya stansiyaları qurulur və s. tədbirlər həyata keçirilir. Belə ki, ”Zəfər” yolu azad olunmuş ərazilərdəki ən mühüm layihələrdən biri olmaqla Füzuli rayonundan Şuşa şəhərinə çəkilib və uzunluğu 101,5 kilometrdir. Bundan başqa, Əhmədbəyli-Füzuli-Şuşa, Füzuli-Ağdam, Bərdə-Ağdam, Toğanalı-Kəlbəcər-İstisu, Xudafərin-Qubadlı-Laçın, Şükürbəyli-Cəbrayıl-Hadrut, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu, Füzuli-Cəbrayıl-Zəngilan-Ağbənd, Horadiz-Zəngilan-Ağbənd dəmiryolları çəkilir, elektrik enerjisi, su təchizatı sistemləri yenidən qurulur. İşğaldan azad edilmiş Zəngilan rayonunda ilk ”ağıllı kənd”, ”Dost Aqropark” layihələri icra edilir. Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanda yaşayış məntəqələrinin salınması ilə bağlı planlar hazırlanıb. Eyni zamanda, Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyində Ərdoğanın iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasiminin keçirilməsi, Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının, Füzulinin Dövlətyarlı kəndində ”ağıllı kənd” konsepsiyası əsasında yaradılacaq böyük yaşayış məntəqəsinin, Zəfər və İşğal muzeylərinin, Cənubi Qafqazda ilk dəfə tətbiq olunan ”Rəqəmsal Stansiya İdarəetmə Mərkəzi” elektrik şəbəkəsinin təməli qoyulub.




Bəli, bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi və qətiyyəti ilə işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində həyata keçirilən işlər və tədbirlər, atılan addımlar Qarabağın cənnətə çevrilməsinə hədəflənmişdir. Və mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımlar Qarabağın qısa zaman kəsiyində dirçəldilməsinə istiqamətlənib. Dövlət başçımızın rəhbərliyi altında bu missiyanın da öhdəsindən gələcəyik, ərazilər minalardan təmizlənəcək və insanlar öz el-obalarına geri dönəcəklər.

Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadı baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin azad edilmiş Qarabağ torpaqları ilə bağlı hədəfləri çoxdur. Bu hədəflərə nail olmaq üçün qarşıda dayanan əsas vəzifə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi və burada yenidənqurma işlərinin daha sürətlə və daha geniş miqyasda aparılmasını təmin etməkdir.

Dövlət başçımızın dediyi kimi: **”Necə ki, torpaqlarımızı qaytardıq, düşməni məhv etdik, bu üçrəngli bayrağımızı ucaltdıq, bütün qalan məsələləri də həll edəcəyik”**

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil Prezident İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır. Bir sözlə, ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan Azərbaycan Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə, 2022-ci ildə də daha yeni-yeni uğurlara nail olacaq.

***RƏFİQƏ KAMALQIZI***

# “Zəfər paradı dünyaya bir mesaj verdi”

**”Paradın mahiyyəti onun adından bəllidir. Bu parad zəfər, qələbə paradıdır. 30 ilə yaxın bir müddətdə işğal altında qalmış torpaqlarımızı azad etdik”. Bu sözləri SİA-ya açıqlamasında deputat Elman Məmmədov deyib.**

Onun sözlərinə görə, Azərbaycan tərəfi 44 günlük müharibə ərzində ədalətli şəkildə müharibə apararaq qalib gəldi: ”Zəfər paradı dünyaya bir mesaj verdi. Bütün dünya artıq başa düşdü ki, Azərbaycan tərəfi qalib tərəfdir. Zəfər paradında düşməndən əldə olunmuş qənimətlər, düşmənin məhv edilmiş hərbi texnikası nümayiş olundu. Bütün bunların hamısı bizim qalibiyyətimizin, zəfərimizin göstəricisi idi. Bu günə qədər bir çox paradlarımız olub. Amma Zəfər paradı tarixə qızıl hərflərlə yazıldı. İlk dəfə idi ki, Azərbaycan müstəqillik qazandıqdan sonra Azərbaycan Ordusu Zəfər paradı keçirirdi”.

***Arzu Qurbanzadə***



**Dekabrın 6-da Yeni Azərbaycan Partiyası Veteranlar Şurası, Mərkəzi Aparatı və Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Ümummilli liderin irsinə əsaslanan Azərbaycanın inkişaf strategiyası" mövzusunda konfrans keçirilib.**



# "Biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq"









## "Ümummilli liderin irsinə əsaslanan Azərbaycanın inkişaf strategiyası" mövzusunda konfrans keçirilib



Konfransda YAP Veteranlar Şurasının üzvləri, YAP Mərkəzi Aparatının əməkdaşları və partiyanın Binəqədi rayon təşkilatının fəal gəncləri iştirak ediblər.

Əvvəlcə YAP Binəqədi rayon təşkilatının inzibati binasının qarşısında ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Konfransda ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, Ulu öndər Heydər Əliyevin iki dəfə respublikanın rəhbəri olduğu 30 ildən artıq bir dövr dövlətçiliyimizin və xalqımızın mənlik şüurunun formalaşmasında tarixi bir mərhələ təşkil edib: "Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsinə, çiçəklənmə, cəmiyyətdə yeni dünyabaxışının formalaşması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrilib. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmiz məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrilib. Bu heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq".

Binəqədi rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev çıxış edərək bildirib ki, bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası dayanır. Bu strategiyanın tarixi Ulu Öndərin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən başlayır. Onun sözlərinə görə, görkəmli dövlət xadiminin respublikamızda rəhbərliyə gəlməsi bir çox sahədə ciddi inkişafa yol açıb, nəticədə xalqımızın gələcək müstəqilliyinə hədəflənən milli özünüdərkin əsası qoyulub.

Sonra YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri barədə məruzə ilə çıxış edib. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən U.Ələkbərov müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinin Azərbaycan yaşadıqca daim xalqımızın yaddaşında, ürəyində yaşayacağını vurğulayıb.

Məruzəçi Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başladığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb və qeyd edib ki, bütün bu işlərin reallaşmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xüsusi rolu var. U.Ələkbərov, ötən dövr ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlər, dünya ölkələri arasında tutduğu yer barədə məlumatları slaydlar vasitəsilə konfrans işrirakçılarının diqqətinə çatdırıb.

YAP Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişaf və tərəqqisinə həsr edib. Onun sözlərinə görə, müstəqil Azərbaycan ulu öndərimizin şah əsəridir. Ş.Əsgərov hələ sovetlər hakimiyyəti dövründə Heydər Əliyev tərəfindən minlərlə gəncin keçmiş ittifaq respublikalarının ali məktəblərinə göndərilməsini, Naxçıvanski adına hərbi litseyin yaradılmasını, 1993-cü ildə respublikamızın məhv olmaq təhlükəsindən xilas edilməsini müasir tariximizin ən mühüm hadisələrindən biri kimi səciyyələndirib.

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov da çıxışında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. Prezident İlham Əliyevin liderliyi ilə Heydər Əliyev siyasəti ölkəmizdə uğurla davam etdirilir. Bu siyasət davamlı olaraq Azərbaycana nailiyyətlər qazandırır.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

# Rus? hərbçiləri necə muzdlu oldular



**Rusiyanın 2-ci Qərb Dairə Hərbi Məhkəməsində "Yenotlar" adlanan hərbləşdirilmiş qurumun işi üzrə məhkəmə prosesi başlayıb. Müttəhimlər kürsüsündə isə Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) mayor rütbəli iki keçmiş zabiti və 2011-ci ildə yaradılmış həmin özəl hərbi şirkətin rəhbəri oturub. Mövcud olduğu ilk vaxtlarda "Yenotlar"ın döyüşçüləri Donbass, Suriya və Dağlıq Qarabağ da daxil olmaqla müxtəlif hərbi münaqişələrdə iştirak ediblər. İstintaqın araşdırmasından da bəlli olur ki, zaman keçdikcə "uğur əsgərləri"ndən bəxt üz çevirib, "yenotlar" adi quldurlara çevriliblər. Üstəlik onlara FTX-nin yüksək rütbəli zabitləri rəhbərlik ediblər.**

Rusiyanın elit hərbi qurumlarından toplanmış qalmaqallı "Yenotlar" muzdlu döyüşçülərindən ibarən bu qrupun yaranma tarixi də özünəməxsus şəkildə maraqlıdır. Onun yaradıcısı "Müqəddəs Rus" millətçi hərəkatının lideri İqor Manquşev hesab olunur. Donbassda münaqişə kəskinləşən zamanı o, həmfikirləri ilə birlikdə Ukraynanın bu bölgəsinə silahlıları necə göndərmək barədə düşünürdü və buna hansı status veriləcəyi barədə Rusiyanın yuxarı hərbi eşalonundakı dostları ilə məsləhətləşmələr aparırdı. 2014-cü ilin yazında Manquşevin "Müqəddəs Rus" təşkilatının digər nümayəndələri ilə birlikdə humanitar missiya adı altında Donbasa getdiyi barədə məlumatlar yayılmağa başladı. Ona həmin illərdə "Vodyanoy" kod adlı Roman Telenkeviç də dəstək olmuşdu.

Maraqlı burasıdır ki, Manquşevin rəhbərliyi altında Donbasda humanitar missiya adı altında fəaliyyət göstərən bütün muzdluların əlində, yaxud çantasının kənarından asılmış yenot oyuncağı var idi. Bu oyuncaq həm də onların talismanı hesab olunurdu. Vaxt keçdikcə missiya iştirakçıları özlərini "yenot" adlandırmağa başladılar. 2016-cı ilin may ayında isə Gənclərin Hərbi-Vətənpərvərlik Tərbiyəsi və Müdafiəsi üzrə Regional İctimai Təşkilatı "Birləşmiş Xalq İcma Birlikləri" - qısaldılmış "Yenot" kimi Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alındı. Nəticədə "Müqəddəs Rus" "Ehtiyat" hərbi-vətənpərvərlik klubları birliyi ilə birləşdi. Əvvəlcə təşkilat qondarma respublikaların - LPR və DXR-in döyüşçüləri üçün humanitar yardım toplamaqla məşğul idi. Humanitar yardım, dərmanlardan əlavə separatçılara zirehli gödəkçələr, gecə görmə cihazları və digər döyüş sursatları göndərilirdi. Bir çox insanlar "Yenotlar"ın muzdlu olduğunu anladılar. Bu fikri insanların beynində formalaşdıran əsasən ukrayna mətbuatında dərc olunan məqalələr oldu.

"Yenotlar"ın üzvləri əvvəlcə heç bir döyüş əməliyyatlarında iştirak etmədiklərini iddia ediblər. Bununla belə, onların hərbi formada və silahla çəkdirdiyi fotoşəkillər arabir sosial şəbəkələrdə peyda olub. Bir vaxt təşkilatın saytında işə qəbulla bağlı elan verildi. Halbuki, elan mahiyyətinə və bütün əlamətlərinə görə "yenotlar"ı muzdlular kimi təqdim edirdi. Qrupun üzvləri isə muzdlu olduqlarını inkar edirdilər. Elanın müəllifləri arqument olaraq qeyd edirdilər ki, "Yenotlar" muzdlu ola bilməz, çünki belə şirkətlərin fəaliyyəti Rusiyada qadağandır. Amma bu təşkilata qəbul olmaq istəyən şəxslərin keçmiş hərbçi olmaları, münaqişə bölgələrində iştirakı əsas üstünlük kimi götürülürdüsə, artıq burada təşkilatın humanitar işlə məşğul olduğunu demək artıq görünür. "Yenotlar"a təcrübəli kadrlar lazım idi, çünki təşkilatın fəaliyyət coğrafiyası genişlənirdi. İşə qəbul olmaq istəyənlər Donbassda, Suriyada və Dağlıq Qarabağda hərbi əməliyyatlarda iştirak etdiklərini qeyd etməkdən çəkinmirdilər. Məhz buna görə, mediada "Yenotlar"ı birbaşa muzdlular adlandırırdılar. Amma təşkilatın rəhbərləri inanırdılar ki, Rusiyada belə təşkilatlara qanuni status veriləcək və onların Ukraynada, Suriyada və hətta Dağlıq Qarabağda fəaliyyətləri də qanuni sayılacaq.

Digər tərəfdən "Yenotlar"ın rəhbəri Manquşev tez-tez Ukrayna sərhəddində görünən FTX əməkdaşlarının onları kəşfiyyat məlumatları ilə təmin etmələrindən ilhamlanaraq artıq təşkilatının qanuni status alacağına inamını artırmışdı. Luqansk ətrafında apardıqları lokal əməliyyatlar nəticəsində Ukrayna hərbçilərindən ələ keçirdikləri hərbi sursatlar "Yenotlar"ın əl-qolunu açmaqla bərabər, həm qondarma respublikalarda, həm də Rusiyada diqqətləri özünə cəlb edə bilmişdi. Qrupun rəhbərləri bu biznesle daha böyük uğur qazanacaqlarını düşünürdülər və əldə etdikləri döyüş təcrübəsi daha "səmərəli" işlərə qatılmağın vaxtı gəldiyini diqtə edirdi.

Amma "Enotlar" təşkilatında heç də hamı Manquşev kimi düşünmürmüş. Təşkilatın əksər üzvləri onlardan humanitar yox, hərbi əməliyyatlarda istifadə edilmələri fikir ayrılığına səbəb oldu, 2016-cı ildə "Yenotlar"la Manquşevin yolları ayrıldı. Manquşev "Yenotlar"ın bütün hesabatlarından silindi. Bundan sonra "Yenotlar"a təşkilatın rəsmi təsisçilərindən biri, "Vodyanoy" kon adlı Roman Telenkeviç rəhbərlik etməyə başladı.

Rusiya İstintaq Komitəsinin məlumatına görə, tale "Vodyanoy"u FSB-nin Moskva və Moskva vilayəti üzrə idarəsinin iki zabiti, mayorlar Aleksandr Mrişuk və Anton Baryakşevlə bir araya gətirib. "Yenotlar"ın keçmiş rəhbəri İqor Manquşev daim öz təşkilatı üçün pul qazanmaq imkanları axtaran, eyni zamanda siyasətçilər və güc blokundan uzaq olan digər nüfuzlu insanlar arasında səxavətli donorlar tapan adam kimi tanınırdı. Manquşevin gedişindən sonra təşkilatda sözün həqiqi mənasında maliyyə böhranı yaşandı.

Telenkeviçin isə fərqli bir sosial dairəsi var idi. Buna görə də, "Yenotlar"a FTX zabitlərinə güc dəstəyi vermək təklif edildikdə, heç kim etiraz etmədi və təəccüblənmədi. Həmin vaxtdan "böyük yoldaşlar"ın "Yenotlar"ın rəhbərinə göstərişləri başlandı və Telenkeviç öz növbəsində, xüsusi xidmət orqanlarının əməliyyatlarında iştirak etmək üçün tabeliyində olanlardan bir qrupunu göndərdi.

Bu əməliyyatlardan biri 2016-cı ilin dekabrında baş verdi. FTX-nin xüsusi təyinatlıları Rusiyaya böyük miqdarda "boz" texnika idxal edən qrupa basqın etdi. Reyd çərçivəsində 27 milyon rubl dəyərində müxtəlif elektronika müsadirə edildi, ələ keçirilən əşyaların bir hissəsi isə oğurlandı.

Oğurlanmış hərbi sursat və texnikaların bir hissəsi Moskva vilayətində yaşayan Vladimir Aristarxov adlı şəxsin evindən və qarajından tapıldı. Əməliyyatda iştirak edənlərin yalnız ikisi rəsmi formada idi, qalanları qara maskada, üzləri örtülü şəkildə idilər ki, kimsə onları tanımasın. Sonradan məlum oldu ki, FTX əməliyyatçıları adı altında əməliyyatda iştirak edənlərin hamısı "Yenotlar"ın üzvləri imiş. Aristarxovun özü və ailəsi o qədər qorxmuşdular ki, əməliyyat keçirənlərin kimliyini soruşmağa cürət etməmişdilər. Aristarxova gömrükdən gizlin ölkəyə mal idxal etməkdə suçlamışdılar. Hadisədən sonra Roman Telenkeviç qərargaha bahalı telefonlar və ən əsası külli miqdarda pulla döndü. Təşkilat üzvlərinə ölkə üçün çox önəmli bir cinayətin üstünü açmaqda yardım etdiklərini və bunun qarşılıqsız qalmadığını anlatdılar. Təbii ki, yenotçular cinayət işlətdiklərinin fərqində deyildilər.

İstintaqçılar qrupun üzvlərinin işlətdikləri cinayət əməllərinin üstünü açdıqca məlum olub ki, FTX zabitlərinin rəhbərliyi altında təkcə "Yenotlar"dan Ukraynada yox, dünyanın bir çox münaqişə ocaqlarında muzdlu döyüşçü kimi istifadə ediblər. Dağlıq Qarabağda gdən 44 günlük savaşda Azərbaycana qarşı bu və digər yarımhərbi "vətənpərvər" döyüşçülərdən geniş istifadə olunub.

Ermənistan I Qarabağ savaşında xarici ölkələrdən gətirilmiş muzdlulardan geniş şəkildə istifadə edib, bu, danılmaz faktdır. Müharibədə iştirak edənlərin, erməni əsirliyində olan azərbaycanlıların dediklərinə görə, erməni silahlılarının önündə və bütün çətin əməliyyatlarda xarici muzdlular aktiv iştirak ediblər. Ermənilərin qəhrəman kimi təqdim etdikləri Monte Melkonyan ABŞ-ın Kaliforniya ştatında anadan olub. 1978-ci ildən Livanda gedən vətəndaş müharibəsində, sağ xristian qüvvələrin tərəfində döyüşüb. Bundan sonra Türkiyə ordusuna qarşı PKK-nın həyata keçirdiyi əməliyyatlarda iştrak edib. 24 sentyabr 1981-ci ildə Melkonyan Parisdəki Türkiyə səfirliyinə hücum təşkil edib. 1988-ci ildə isə Qarabağda münaqişə alovlanan kimi Monte öz dəstəsi ilə dinc azərbaycanlılara qarşı törədilən vəhşiliklərin törədilməsində öndə gedənlərdən olub.

Ermənilər dünyanın hər yerində olduğu kimi Rusiyada da muzdlu toplamaq kimi qanunsuz əməllərindən çəkinməyiblər. Erməni fondları tərəfindən maliyyələşdirilən həmin qruplar ölkəmizin haqq savaşında bizə qarşı savaşıblar. Düzdür Rusiya rəsmi şəkildə bu hadisələri inkar etsə də Şimal qonşumuzun ərazisində fəaliyyət göstərən "Vaqner", "Yenotlar" kimi harımhərbi təşkilatlar müxtəlif dini, milli ideologiya ətrafında birləşərək başqa ölkələrin ərazisində münaqişələrdə iştirak ediblər. Bəşşar Əsəd hökumətinin köməyi ilə yüzlərlə suriyalını Ermənistan tərəfdən Azərbaycana qarşı döyüşməyə cəlb edənlər də erməni parası ilə Rusiyadakı mərkəzlər reallaşdırıblar.

İkinci Qarabağ müharibəsində də Ermənistan xarici ölkələrdən muzdluların gətirilməsinə veto qoymadı. Əksinə onların bölgəyə gətirilməsi sxemi rəsmi İrəvanın xeyir-duası ilə tərtib edildi və hadisələrin sonrakı gedişi də göstərdi ki, Livan, Rusiya, İrak, Suriya, Fransa, ABŞ kimi ölkələrdən gətirilmiş paralı əsgərlər Azərbaycana qarşı döyüşlərdə iştirak ediblər. Ermənistan tərəfi bu faktı gizlətmək üçün guya Azərbaycanın muzdlulardan istifadə etdiyini bildirir, amma reallıq başqadır. Məsələ burasındadır ki, ötən ilin sentyabr və oktyabr aylarında ölkənin Latakiya əyalətindəki Rusiyanın nəzarəti altında olan Xmeymim hərbi hava bazasından suriyalı muzdlu döyüşçülər Azərbaycana qarşı müharibədə ermənilərlə birgə vuruşmaq üçün göndərilib. Muzdlulara Liviyaya gedəcəkləri bildirilsə də, onlar Dağlıq Qarabağa gətirilib. Bu müddət ərzində 5 uçuş qeydə alınıb. Bundan başqa, ərəb muzdlularla yanaşı, Suriya mənşəli ermənilərin Livanın paytaxtı Beyrut və Suriya paytaxtı Dəməşqin hava limanlarından Ermənistana onlarla uçuşu təsdiqlənib. İlk iki dəstə oktayabrın 21-də Ermənistana göndərilib. Bununla əlaqədar döyüşçülərə və ailələrinə yanlış məlumat verilib. Hətta bir çox ailə oğullarının Liviyada müəyyən tapşırıqları yerinə yetirmək əvəzinə, Ermənistanda döyüşdüklərini eşidəndə şoka düşüblər.

Ermənistanda döyüşə göndərilən əsgərlər prosesin təfərrüatları barədə tam məlumatlandırılmayıblar. Əvvəlcə onlar Liviyada pul üçün döyüşmək üçün qeydiyyatdan keçiblər. Liviyada aktiv döyüşlər dayandığı müddətdə Qarabağda döyüşlərin getdikcə intensivləşdiyinə görə işə qəbul olunanlar Ermənistana göndərildilər. Maaşlar ixtisasdan və tələb olunan bacarıqlardan asılı olaraq 1 000 ilə 2 000 dollar arasında dəyişib. Ancaq muzdlular yaralanma hallarında təzminat almaq hüququna malik deyildilər. Həm də itkin düşmüş əsgərləri axtarmaq və ya əsir mübadiləsi sövdələşmələri aparmaq kimi öhdəlik də olmayıb. Bir sözlə, sağ qalsan, pul qazanacaqsan, əsir düşsən, yaxud yaralansan nə danışıqlar aparmaq, nə mübadilə aparmaq, nə də müalicə olunmaq kimi şansın qalmır. Ona görə də Ermənistan rəsmiləri ordunun tərkibində muzdlu olmadığı barədə ötkəm danışmaq kimi yalançı görüntü yaradırlar.

Amma faktlar muzdluların sayının minlərlə olduğuna dəlalət edir. Ermənistana aparılan muzdlulardan birinin anası aldadıldığını dilə gətirərək bildirib ki, pula çox ehtiyac duyduğu üçün oğlunun Liviyaya getməsinə razı olub. Sentyabrın 18-də oğlu bir zabitin telefonundan istifadə edərək Xmeymim hava bazasından olduğunu deyib. Ondan sonra oğlundan xəbər çıxmayıb. Qarabağda gedən döyüşlərdə öldürüldüyünü eşidən qadın əvvəlcə buna inanmayıb, sonrakı dəlil sübutlar isə oğlunun Liviyada yox, Qarabağda döyüşdüyünü isbatlayıb.

Palmira şəhərindən digər bir muzdlunun qohumu isə avqustun ortalarında Liviyaya səyahət etmək üçün 31 yaşlı qohumunun adını siyahıya saldırıb. 15 nəfər idilər. Hamısı sentyabrın 11-də Palmira hava bazasında toplandılar və növbəti iki günü orada keçirdilər. Oradan onlar Xmeymim hava bazasına köçürülüb və Ermənistana göndərilib. Suriyalı muzdlu döyüşçülər Xmeymim hava bazasından Rusiya hərbi təyyarəsi ilə Ermənistana - Erebuni hava limanına aparılıblar. Muzdlular sentyabrın 19-22-də ardıcıl uçuşlarla göndərilib. Digərləri oktyabrın 12, 21 və 27-də göndərilib. Sentyabr və oktyabr aylarında Rusiya Qarabağda ölən azı 15 suriyalı muzdlu döyüşçünün cəsədlərini geri daşıyıb. 12 yaralı da Homs hərbi xəstəxanasına köçürülüb.

Sentyabr-noyabr aylarında Xmeymim Hava Bazasından 54 meyit gətirilib və çoxlu sayda yaralı xəstəxanaya yerləşdirilib. Orada qohumlarına bildiriblər ki, onlar Qarabağda döyüşüblər. Bir çox meyitlər isə müəyyən səbəblərdən ailələrə verilməyib. Maraqlı burasıdır ki, ölən və yaralanan muzdluların ailələrinə deyiblər ki, onlar "xaricdə milli vəzifə borcunu yerinə yetirərkən" öldürülüblər.

Araşdırmalar nəticəsində məlum olub ki, digər ölkələrdən onlarla erməni döyüşmək üçün Qarabağa aparılıb. Bir muzdlu erməni bu barədə danışarkən bildirib ki, döyüşçülər Suriyadan, Livandan, Cənubi Amerikadan və hətta Kanadadan gəlmişdi. 147 nəfərlik qrupa qısa müddətdə paytaxt Yerevandakı düşərgələrdə silahlarla davranmaq öyrədilib. Sonra hər biri 30 muzdludan ibarət bölmələr yaradılıb. Livanın Bürc Hammud şəhərindən olanlar Erməni Gizli Ordusunda (ASALA) qeydiyyatdan keçirdilər. Digərləri Rusiyanın vasitəçiliyi ilə Rizcan Sarancyanın komandanlığı altında muzdlu olaraq iştirak etdilər.

Qarabağ döyüşlərində iştirak etmək üçün Suriyadan və Livandan erməni millətindən olanların toplandığı barədə danışan Kesab şəhərində yaşayan ermənilərdən biri Qaro Mancikyan bildirib ki, iki dəstə "Cham Wings" hava yolları tərəfindən Ermənistana aparılıb. Növbəti qrupa erməni muzdluları və İran İnqilab Keşikçiləri Korpusunun (SEPAH) Qüds qanadının digər üzvləri daxil idi. Müharibə başlayanda Kesab qəsəbəsinin erməni ailələri tam olaraq Livana köçürüldü. Bu prosesə başçılıq edən Livandakı ən böyük erməni siyasi partiyası olan Erməni İnqilab Federasiyası (Daşnaksütyun kimi də tanınır) bəzi erməni yaraqlılarını Qarabağa döyüşə göndərdi. Təxminən 200 erməni gəncinin niyyəti bu idi ki, döyüşdən sonra Ermənistan vətəndaşlığı alacaq.

Buradan belə görünür ki, Rusiyanın da daxil olduğu Livan, Suriya, Fransa, ABŞ kimi ölkələr rəsmi şəkildə muzdluların xidmətindən yararlanmadıqlarını və digər ölkələrə göndərmədiklərini bildirsələr də, həmin dövlətlərin niyyət və arzularını fərqli ölkələrdə mövqelənmiş, təşkilatlanmış yarım-hərbi təşkilatlar reallaşdırıblar.

**V.VƏLİYEV**

# Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir



**Prezident İlham Əliyevin Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbulunda Şərq Tərəfdaşlığı Sammitinin gündəliyinin əsas müzakirə mövzusu olması ölkəmizin söz sahibliyinin təsdiqidir**

**"Azərbaycan ərazilərinin uzun müddət Ermənistan tərəfindən işğalına son qoydu. Azərbaycan Ermənistan qoşunlarının bizim ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi və Azərbaycan müharibəyə son qoydu. Ona görə də indi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır. Biz buna hazırıq.**

Bu gün biz cənab Prezidentlə planlarımızı, təşəbbüslərimizi və yeni yaranmış vəziyyətə yanaşmalarımızı geniş şəkildə müzakirə etdik. Düşünürəm ki, nisbətən qısa zamanda xoş məram və çox praqmatik yanaşma nümayiş etdirməklə, biz hələ də masa üzərində qalan məsələlərin əksəriyyətini həll edə və bölgədə geniş regional əməkdaşlığın təməlini qoya bilərik. Avropa İttifaqı bu baxımdan çox mühüm rol oynayır və əminəm ki, oynayacaq." Bu ilin iyulunda Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin ölkəmizə səfəri zamanı keçirdikləri birgə mətbuat konfrasında səsləndirdiyi bu fikirlər Azərbaycanla qurum arasında münasibətlərə, eyni zamanda, günümüzün əsas məsələsi olan sülh müqaviləsinin imzalanmasına Avropa İttifaqının dəstəyi ilə bağlı ölkəmizin gözləntilərinə işıq saldı. Dövlət başçısı İlham Əliyev, həmçinin qeyd etmişdir ki, cənab Prezidentin Cənubi Qafqazın 3 ölkəsinə səfəri Avropanın iştirakını, Avropa gündəliyini nümayiş etdirir və bu, bizim gündəliyimizə tam uyğundur. Bu məsələdə də bizim fikirlərimiz üst-üstə düşür və əlbəttə ki, bağlılıq və işğaldan azad edilmiş ərazilərin yenidən qurulması məsələləri baxımından münaqişədən sonrakı inkişaf hər zaman aramızdakı gündəlikdə olacaq.

Azərbaycanın xarici siyasət uğurları, diplomatik qələbəsi göstərir ki, Azərbaycan bütün ölkələrlə, güc mərkəzləri ilə çox səmərəli, işgüzar, bərabərhüquqlu münasibətlər qurub. Bu münasibətlər qarşılıqlı inam, hörmət, bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulur. Cənab İlham Əliyev çıxışlarında xarici siyasətimizin əsas prioritet istiqaməti kimi Avropa İttifaqı və quruma üzv olan ölkələrlə əməkdaşlığa xüsusi diqqət yönəldərək bildirir ki, Avropa İttifaqına üzv ölkələrin üçdəbir hissəsi ilə Azərbaycanın strateji tərəfdaşlığı haqqında sənədlər vardır. Bu, əlbəttə, onu göstərir ki, Azərbaycan Avropa üçün strateji əhəmiyyət daşıyan ölkədir.

Dünyanı cənginə alan koronavirus infeksiyası ilə mübarizə tədbirlərinə uyğun olaraq ötən il qarşılıqlı səfərlərdə durğunluq yaransa da, videoformatda təşkil olunan görüşlər, beynəlxalq əhəmiyyətli tədbirlər münasibətlərin inkişafına, yeni prioritetlərin müəyyənləşdirilməsinə əlavə imkanlar yaratdı. Artıq son dövrdə bu səfərlər intensiv xarakter alıb. Dekabrın 1-də Prezident İlham Əliyevin Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən Şərq Tərəfdaşlığı Sammitinin gündəliyinin müzakirə mövzusu olması bir daha Azərbaycanın beynəlxalq münasibətlər sistemində artan rolunun və yerinin təqdimatı oldu. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimizin yaratdığı reallıqlar Azərbaycanın regionda və dünyada mövqeyinə yeni əlavələr etdi. Dünyanın siyasətində dəyişikliklər diqqətdən kənarda qalmır. Azərbaycan tarixi Zəfəri ilə dünya güclərinə, nüfuzlu beynəlxalq təşkilatlara bu həqiqəti çatdırdı ki, ədalət və beynəlxalq hüquq deyilən məfhum var, onların tətbiqi vahid mexanizmin müəyyənləşdirilməsini tələb edir. Azərbaycan dövləti 30 illik işğal dövründə ən yüksək tribunalardan bəyan edirdi ki, ikili standartlara əsaslanan siyasət qəbuledilməzdir. BMT Təhlükəsizlik Şurasının qətnamələri bəzi dövlətlər üçün bir neçə saat ərzində icra edilir, Azərbaycana gəldikdə isə 30 il gözləyir. Eyni bəyanatları cənab İlham Əliyev bir ildir tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən bu gün də səsləndirir və bildirir ki, problemin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu zamanında Ermənistana qarşı sərt addımlar atıb BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməyə məcbur etsəydi, 44 günlük İkinci Qarabağ müharibəsi baş verməzdi.

Qeyd edək ki, Azərbaycan bu gün istər sülh müqaviləsinin imzalanmasında bütün beynəlxalq təşkilatların potensialından yararlanmağa səy göstərirsə, eyni istəklə 30 illik işğal dövründə də çıxış edirdi. Amma təəssüflər olsun ki, işğalçı Ermənistan və ona havadarlıq edən dövlətlər beynəlxalq fikri çaşdırmaq üçün Azərbaycanın bu addımını ATƏT-in Minsk qrupunun vasitəçiliyindən imtina kimi dəyərləndirirdilər.

Azərbaycan hər zaman Avropa ittifaqı, Avropa İttifaqı isə Azərbaycan üçün önəmli tərəfdaşdır. Ölkə Prezidenti İlham Əliyevin bu və ya digər Avropa ölkələrinə, eyni zamanda, Avropa ölkələri rəsmilərinin Azərbaycana bu günə qədər reallaşdırdıqları səfərlərinə, müzakirə olunan məsələlərə diqqət yetirsək, bu önəmi daha aydın şəkildə görə bilərik. Azərbaycanın bu gün dünyanın enerji təhlükəsizliyinin təminatında artan rolunu nəzərə alsaq, bu səfərlərin hər birində ölkəmizin enerji sektorunda qazandığı uğurlar, gündəmə gətirilən layihələrin coğrafiyasının genişləndirilməsi kimi məsələlər, eyni zamanda, bu gün artıq tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin əsas müzakirə mövzusu olduğunu görərik.

Ölkə Prezidenti İlham Əliyev Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində "Avropa İttifaqı bu layihənin icrasında çox önəmli rol oynamışdır. Hələ 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında "Cənub Qaz Dəhlizi" haqqında Birgə Bəyannamə imzalanmışdır. Bu illər ərzində Azərbaycan daim Avropa İttifaqının dəstəyini hiss edib" söyləyərək bu məqamı da xüsusi vurğulamışdır ki, 2015-ci ildən bu günə qədər Avropa İttifaqı keçirilən toplantılarda ən yüksək səviyyədə təmsil olunur. Avropa İttifaqı ilə Azərbaycanın əməkdaşlıq formatında energetika sektoru təbii ki, çox böyük yer tutur. Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə iştirak edirdi - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Göründüyü kimi, geniş beynəlxalq əməkdaşlıq yaradılmışdır. Artıq Cənub Qaz Dəhlizinin 2018-ci ildə rəsmi açılışı oldu. Eyni zamanda, əsas seqmenti olan TANAP, ötən ilin dekabrın 31-də TAP istifadəyə verildi. Azərbaycan reallaşdırdığı enerji layihələri ilə dünyanın enerji xəritəsini yenidən tərtib edir.

Azərbaycanın enerji və nəqliyyat layihələrinin mərkəzi kimi tutduğu mövqe yüksək dəyərləndirilərək, bu günün reallıqlarının qarşıdakı dövr üçün əlaqələrin inkişafına böyük stimul olduğu bildirilir. Azərbaycanın davamlı inkişafı, təkmil sosial-iqtisadi islahatları, yerləşdiyi coğrafi məkan və malik olduğu enerji resurslarından səmərəli istifadə beynəlxalq münasibətlər sistemində yeri və rolunu günbəgün artırır və möhkəmləndirir. Regional iqtisadi inkişafın aparıcı qüvvəsi kimi beynəlxalq aləmdə etibarlı tərəfdaş imicini daha da möhkəmləndirir. Ölkəmizlə Avropa İttifaqı əlaqələrinin sürətlənməsi, Azərbaycanın enerji layihələrinə siyasi dəstək ifadə edilməsi, hazırkı dövrdə sülh müqaviləsinin imzalanmasında Avropa İttifaqının fəallığının artırılması, Azərbaycanın sülhsevər və dünyəvi dövlət kimi regional əməkdaşlıq və təhlükəsizlik məsələlərində oynadığı rolun etirafı bir daha təsdiqləyir ki, tarixi Zəfərimiz ölkəmizin qarşısında bütün sahələrdə geniş imkanlar açmaqla yanaşı, rolunu artırır. Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsiToivo Klaarı qəbul edərkən Avropa İttifaqı-Azərbaycan əlaqələrinin müxtəlif aspektləri, Cənubi Qafqazda əməkdaşlıq perspektivləri, postmünaqişə vəziyyəti və Ermənistan-Azərbaycan sərhədində noyabr ayında baş vermiş gərginliklə bağlı məsələlər müzakirə edilərək əsas diqqət bu ay Brüsseldə keçiriləcək Şərq Tərəfdaşlığı Sammitinə yönəldilmişdir. Sammitin gündəliyinə dair fikir mübadiləsinin aparılması Azərbaycanın söz sahibliyinə bir daha işıq salır.

Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycanın xarici siyasətinin dəyişməz prinsipləri ona daim uğurlar qazandırır. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı hörmət və maraqlar prinsipi əsasında əlaqələr quran Azərbaycan yeni dostlar, tərəfdaşlar qazanır. Bu gün ölkəmiz etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir.

Azərbaycanın iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihələri dövlətlər, xalqlar arasında körpü roluna yeni əlavələr edir. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, enerj sektorunda əməkdaşlığın coğrafiyasının genişləndirilməsi, regional çərçivədən beynəlxalq müstəviyə keçməsi Azərbaycanın bu gününə və gələcəyinə olan inamdan irəli gəlir. Soçi görüşü, onun ardınca İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısı və dekabrın 15-də keçiriləcək Şərq Tərəfdaşlığı Sammiti qalib Azərbaycanın tarixi Zəfərini şərtləndirən amillərin və postmünaqişə dövrü üçün müəyyənləşdirilən prioritetlərin reallığa çevrilməsi mexanizmlərinin təqdimatında əhəmiyyətli rol oynayır. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan Prezidentinin və Ermənistanın baş nazirinin Şərq Tərəfdaşlığı Sammiti çərçivəsində görüşünün təşkil olunması Azərbaycanın növbəti diplomatik uğuru olacaq. Reallaşacaq bu görüş, eyni zamanda, əvvəldə qeyd etdiyimiz kimi, Şarl Mişelin iyul ayında ölkəmizə səfəri zamanı qurumun sülh müqaviləsinə dəstəyi ilə bağlı səsləndirdiyi fikirlərin reallıqda təsdiqi olacaq. Həmin səfərdə də əsas müzakirə olunan məsələlərdən biri məhz Şərq Tərəfdaşlığı Sammitinə hazırlıq idi. İyul ayında Avropa Şurasının Prezidenti Şarl Mişel ölkəmizə səfər edərkən keçirilən mətbuat konfransında "İkinci Qarabağ müharibəsində Qələbədən sonra Azərbaycan hökuməti açıq şəkildə Ermənistanla sülh razılaşması və iki ölkənin sərhədlərinin delimitasiyası ilə bağlı danışıqlara başlamağa hazır olduğunu bəyan etdi. Əfsuslar olsun ki, Ermənistan bu təklifi rədd etdi. Bu, o deməkdir ki, Ermənistan sülh istəmir. Mənim sualım isə ondan ibarətdir ki, siz bu məsələni Ermənistan hökuməti ilə müzakirə etdinizmi və sülh razılaşması üzərində danışıqlara başlamağa Ermənistanı inandırmaq üçün Avropa İttifaqı nə edə bilər" sualını cavablandırarkən bildirmişdir ki, mən həqiqətən də vəziyyətlə əlaqədar və mümkün sülh sazişi çərçivəsində irəliləyişə nail olmaq üçün işin aparılmasının əhəmiyyəti ilə bağlı Ermənistan hökuməti, Ermənistanın baş naziri ilə müfəssəl müzakirələr aparmışam. Həm Azərbaycan Prezidentinə, həm də Ermənistan baş nazirinə Avropa İttifaqının mümkün qədər müsbət və konstruktiv rol oynamağa hazır olduğunu bildirdim. Əlbəttə ki, biz Minsk qrupunun oynadığı rola hörmət bəsləyirik. Lakin bu, Avropa İttifaqı tərəfindən müəyyən mütəxəssis biliyi, dəstək və ideyaların təmin edilməsinin və daha çox sabitliyin, təhlükəsizliyin təmin olunması, regionda dayanıqlı sülhün bərqərar olmasından əmin olmaq üçün müəyyən mümkün irəliləyişlərə dəstək verilməsinin mümkün olmaması anlamına gəlməməlidir.

Bugünün reallıqlarından göründüyü kimi, dünya gücləri, həmçinin nüfuzlu beynəlxalq təşkilatlar Ermənistanla Azərbaycan arasında münasibətlərin tənzimlənməsində, sülh müqaviləsinin imzalanmasında maraqlıdırlar və dəstək göstərməyə hazırdırlar. Yeni əməkdaşlıq formatlarının yaradılması üçün bölgədə dayanıqlı sülhün, təhlükəsizliyin təmin olunması vacibdir. İndiki məqamda, yeni Vətən müharibəsindən sonra iqtisadi böhran içərisində çabalayan Ermənistan üçün sülh müqaviləsi yeganə çıxış yoludur.

*Yeganə Əliyeva*

# Şeytanla "BARTER" güvənilən deyil

**Tarix boyu etibar qazana bilməyənlər, xəyanətlərə imza atanlar, ələlxüsus Qafqazda növcudluqları dövründə hər əsən küləyin istiqmətində meyil edənlər yenə də öz xislətlərini nümayiş etdirməkdə davam edirlər. Rusiyanın köməyi ilə meydana gələn, uzun zaman fasiləsində varlığını, mövcudluğunu məhz rusların hesabına qoruyub saxlayan Ermənistan eyni ilə bir zamanlar Türkiyəyə xəyanət edib ruslara satıldıqları kimi, indi də Rusiyanı Qərbə satır və bu xəyanətkar simalarını çəkinmədən belə, nümayişkəranə şəkildə ortaya qoyurlar. Bir sözlə, Azərbaycanın taleyinə belə simasızlarla qonşuluq düşüb və bələləri ilə müqavilələrin, razılaşmaların nə demək olduğu bəlli məsələdir və sanki şeytanla razılaşmaya bənzəyir.**

Şahidi olduğumuz kimi belə şeytanların öhdəsindən son günlər ruslar gəldilər və Soçidə 9 noyabr 2021-ci tarixində keçirilməsi planlaşdırılan üçtərəfli görüşdən imtina edib sonra da 15 dekabr tarixində Brüsseldə görüşmək razılığı verənləri 26 noyabr tarixində Soçidə görüşməyə vadar etdilər. Bir növ, şeytanı daha yaxından tanıyanlar güvənmədən bildikləri şəkildə, öz rıçaqlarından istifadə edərək məcburiyyət qarşısında qoydular. Bu da faktdır ki, 26 noyabr tarixində görüş reallaşdırıldı və Rusiya tərəfindən Ermənistana yetərincə mesajlar verildi. Hətta, Rusiya liderinin irəli sürdüyü təkliflərə baş əyən də elə erməni baş nazir özü oldu, baxmayaraq ki, sonradan özünün təyin etdiyi işçi qrupu onun fikirlərini inkar etməyə çalışdı. Eyni ilə şeytancasına, özü də utanmadan və çəkinmədən.

Maraqlı, eləcə də təzadlı məqamlar Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin ABŞ dövlət katibi Blinkenlə 3 dekabr tarixində baş tutan görüşü zamanı da diqqəti cəlb etdi. Beləki, Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ABŞ dövlət katibi Entoni Blinkenlə görüş zamanı postmünaqişə dövrü ilə bağlı çağırışlar etdi. Bu çağırışlar ələlxüsus, "münaqişə bitməyib" iddialarına qarşı əhəmiyyətli sayıla bilər və burada məqsəd münaqişənin bitdiyini gündəmə gətirmək, bununla da məsələnin sülh yönündə həllinə köklənmək idi, hansıki bu Azərbaycanın sülhsevər mövqeyidir və çox yüksək qiymətləndirilməldir. Ona görə yüksək qiymətləndirilməlidir ki, burada məram yalnız təhlükəsizlik, sabitlik, stabillik, əməkdaşlıq və inkişafa xidmət edən sülhdür. Məsələ burasındadır ki, Ermənistan xarici işlər naziri Ararat Mirzoyan isə Blinkenlə görüş zamanı sərhəd məsələsini öz maraqları kontekstində təqdim etdi. Məsələn, Mirzoyan əvvəlcə ABŞ dövlət katibindən dırnaqarası "erməni əsirləri"n, əslində isə diversantların qaytarılması üçün kömək istədi, sonra "Qarabağda öz müqəddəratını təyin etmə" məsələsini ortaya atdı, ardınca da 30 ilə yaxın müddətdə münaqişənin həllini uzadan Minsk qrupu formatının bərpasının vacibliyini vurğuladı. Yəni, bu şeytanlar yalnız məsələni uzatmağa, min bir hiylə ilə fitnəni cücərtməyə can atdıqlarını aşkar şəkildə nümayiş etdirdilər və bunun da bütün dünya şahidi oldu. Şahidi oldu ki, rəsmi İrəvan, "münaqişə hələ bitməyib" tezisini gücləndirməyə can atır və bütün dövlətləri bu münaqişəyə cəlb etməkdən də çəkinmir. Əksinə, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində addımlar atıldığı bir vaxtda, Rusiya və Avropa ciddi səylər göstərdiyi bir zamanda Ermənistan daxilində iki ölkə arasında münasibətlərin yaxınlaşdırılmasına qarşı olan qüvvələr fəaliyyətə keçiblər və sülh sazişinə mane olmaq üçün dəridən-qabıqdan çıxırlar. Bunun da adı bəllidir və buna şeytanlıq deyilir.

Əslində, Soçi görüşündən deyil, Brüssel görüşündən ermənilərin daha böyük gözləntilərinin olduğu dərhal bəlli oldu. Rusiyanın da Soçi görüşündən tam razı qalmadığı hiss olunurdu və Moskva da yaxşı bilir ki, ermənilərin ümidləri Brüssel görüşünədir. Elə Rusiyanı da qızışdıran məhz budur. Əvvəla, Avropa ilə Rusiya arasındakı arzuolunmaz münasibətlərin fonunda ermənilərin Soçi deyil, Brüssel görüşünə bel bağladıqları rusları özündən çıxarır, digər tərəfdən də ermənilərin daha kimlərə maşa olacaqlarından, hansı şeytanlıqlar edəcəklərindən ehtiyatlanırlar. Çox güman ki, Rusiya mina xəritələrinin verilməsi kimi bir öhdəliyi də Ermənistanın boynuna əbəs yerə qoymadı, ermənilərin hərbi əsir adlandırdıqları diversantların da qaytarılmasına nail oldu və məqsəd Brüssel üçün heç bir əlavə tədbirlər saxlamamaq idi. Amma, bu erməni şeytanları yaxş tanısalar da ruslar unudurlar ki, belələrindən nə desən gözləmək olar və o xəritələr elə bundan əvvəlki yalançı xəritələrdən, cəmi 25 faizi doğru çıxan xəritələrdən fərqlənməyə də bilər və bununla yenə oyun oynamış olarlar.




Bəli, Ermənistan tərəfi azad edilmiş digər ərazilərin də mina xəritələrini Azərbaycana təqdim etdi və əvəzində 10 erməni diversantını geri aldı. Bir növ rəsmi Bakı ilə İrəvan arasında "barter" həyata keçirildi. Məsələ burasındadır ki, Azərbaycan tərəfi Ermənistana təhvil verdiyi 10 nəfər erməni diversantı idi və burada yanlışlıq yoxdur, ola da bilməz və erməni diversantların əvəzinə İrəvana başqa kimsələr verilə bilməzdi, amma ermənilərin bizə təqdim etdikləri xəritələrin doğrunu, reallığı əks etdirəcəyi sual altındadır, necə ki, bundan əvvəl təhvil verdiyi xəritələr tam doğru çıxmırdı. Bilirik ki, bundan əvvəl Ağdam, Füzuli və Zəngilan olmaqla üç rayonun mina xəritələri bizə təqdim olunmuşdu və bu xəritələrin cəmi 25 faizi həqiqəti əks etdirirdi. İndi kim deyə bilər ki, bu dəfəki xəritələr tam həqiqəti əks etdirəcək və dəqiq mina xəritələri verilib?

Doğrudur, mina xəritələrinin tam dəqiqliyi istisna olsa da, Bakı yenə də uduzan tərəf deyil. Ən azından biz Azərbaycan tərəfi antiterror əməliyyatında saxlanılan erməniləri yox, 16 noyabrda sərhəddə saxlanılan erməniləri Ermənistana təhvil verməklə Qarabağda baş verənlərin "daxili məsələmiz" olduğunu və mövqeyindən geri çəkilmədiyini bir daha təsdiqlədi. Digər tərəfdən, nəzərə almaq lazımdır ki, Azərbaycan cəmi 10 nəfər erməni diversantın əvəzinə qalan bütün mina xəritələrini almış oldu. Ən vacib olanı, daha önəmli olanı isə odur ki, biz Ermənistanın Brüssel görüşünün gündəmini formalaşdırmaq imkanını xeyli dərəcədə məhdudlaşdırdıq. Yəni, Ermənistanın rəsmi Bakını dırnaqarası "əsir" məsələsində ittiham etmək imkanları sıfıra endirildi. Bax bu "barter" ermənilərin Brüsseldə ittihamlarının qarşısını kəsir desək yanılmarıq və ən böyük nəticə də məhz budur.

Əlbəttə ki, hələ bundan sonra ermənilərin hansı məkrli fikirlər səsləndirəcəyi də bəlli deyil. İndi yeganə məqsədlərinin sərhədlərin delimitasiyasına, demarkasiyasına, Azərbaycanın ərazi bütövlüyünün tatınmasına, sülh sazişinə mane olduğunu nəzərə alsaq, ermənilərin nə kimi əməllərdən çıxacaqları bilinən deyil. Bilsə də bunu özləri xislətdə olan şeytan bilər. Kim bilir, indi hansı fikirlər, uydurmalar səsləndirmək niyyətindədirlər. Nəzərə almaq lazımdır ki, biz ən hiyləgər düşmənlə indi də diplomatik müstəvidə üz-üzəyik. Ola bilsin ki, Ermənistan tərəfi bu dəfə də doğru olmayan xətirələri təqdim edib və doğru olan xəritələrin müqabilində bu dəfə də başqa fikirləri ortaya ata bilərlər. Yəni, bu şeytanlarla "barter" güvənilən deyil və hər zaman hazırlıqlı olmaq lazımdır.

***İnam Hacıyev***

## Maaş, pensiya və təqaüdlər nə qədər artacaq?



"Gələn il əməkhaqqı orta hesabla 40-50 faiz, pensiyaların həcmində orta hesabla 40-45 manat artım olacaq". "İki sahil" xəbər verir ki, bunu Milli Məclisin Əmək və sosial siaysət komitəsinin sədri Musa Quliyev deyib. Onun sözlərinə görə, 2022-ci ildə təqaüdlərin və sosial müavinətlərin bəzilərinin həcmində iki dəfəyə yaxın artımlar olacaq və ona görə də bahalaşma fonunda sosial rifahını qoruyan addımlar da atılmalıdır: "Milli Məclisdə gedən büdcə müzakirələri zamanı qeyd olundu ki, gələn ilin birinci yarısında bahalaşma tamamilə dayana bilər. Bu il inflyasiya orta hesabla 8-10 faiz həcmində idisə, gələn il 3-4 faizə qədər enə bilər və bu, qazancın xərci üstələməsi deməkdir".

## Yeni il yarmarkalarında qiymətlər necədir?

Bu il bir çox metrostansiyaların çıxışında yeni il yarmarkaları qurulub. Bayram yaxınlaşdıqca müxtəlif bəzək əşyalarına, şam ağaclarına, hədiyyələrə, bir sözlə, Yeni il bayramı üçün lazım olan hər şeyə tələbat artır. Yarmarkalarda şam ağacının qiyməti böyüklüyündən və formasından asılı olaraq 2 manatdan 90 manata qədər dəyişir. Şam ağacını bəzəmək üçün lazım olan bəzəklərin qutusu isə 2 manatdan başlayır. Zərlər hər biri 50 qəpikdən 5 manata, şar qiymətləri isə 1 dənəsi 10-20 qəpik arası dəyişir.



Yarmarkada şam ağacı işıqlarının qiyməti uzunluğundan asılı olaraq dəyişir. İşıqların qiyməti 4 manatla 40 manat arasındadır. Əgər evinizi daha da gözəlləşdirmək istəsəniz, bu zaman süni qarlar da ala bilərsiniz. Süni qarların qiyməti isə 2 - 3 manat təşkil edir. Satıcıların sözlərinə görə, yarmarkalar ayın əvvəlindən fəaliyyət göstərir. "Yeni ilə bir neçə gün qalır. İnsanlar yaxınlaşıb qiymətlərlə maraqlanırlar. Yarmarkalarda qiymətlər fərqlidir", - deyə satıcılar bildiriblər.

Qeyd edək ki, Bakı Şəhər İcra Hakimiyyətinin Ticarət və Xidmət Departamentindən bildirilib ki, dekabrın 2-dən Bakının 12 rayonunda 20-yə yaxın bayram çadırının quraşdırılmasına başlanılıb. //Trend

# Heydər Əliyev - milli-mənəvi dəyərləri daim uca tutan Lider

### 1969-CU İLİN TARİXİ İYUL PLENUMU- HEYDƏR ƏLİYEVİN RESPUBLİKA RƏHBƏRİ TƏYİN EDİLMƏSİ İLƏ AZƏRBAYCANIN TARİXİNDƏ SÜRƏTLİ İNKİŞAF DÖVRÜ BAŞLAYIB



1969-cu ilin tarixi iyul plenumu - Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açanda ilk öncə 1969-1982-ci illərə, onun Sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir. Həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Ulu Öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub. O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Halbuki respublikamız ittifaqda zəngin yerüstü, yeraltı sərvətləri ilə seçilib. Amma respublikamızın adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi. Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edilib, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirilib.

Azərbaycan xalqının xilaskar oğlu Heydər Əliyevin ikinci hakimiyyət dövrü isə müstəqillik qazandığımız çox çətin və mürəkkəb illərə təsadüf edir. 1990-cı illər Azərbaycanın tarixinə ağır faciələrin yaşandığı bir dövr kimi daxil olub. Həmin vaxt Sovetlər birliyi süqut edəndə 15 ittifaq dövləti sırasında Azərbaycan yeganə ölkə oldu ki, ərazisinin 20 faizi işğal edildi, 20 mindən çox şəhid verdik, 1 milyondan çox soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşdü. Sovet rejiminin qəddarlığı sayəsində Azərbaycanda baş verən 20 Yanvar qırğınlarından sonra Heydər Əliyev doğulduğu Naxçıvana qayıtdı və burada xalqın iradəsi ilə Ali Məclisə rəhbərlik etməyə başladı. Məhz onun qətiyyəti və fədakarlığı sayəsində bu diyarda ölüm-itki olmadı, insanlar müdrik rəhbərin ətrafında sıx birləşərək onun timsalında xilas yolunu tapdılar.

17 noyabr 1990-cı ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçiriləndə Heydər Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq üçrəngli bayrağımız binanın üzərində dalğalandı. Məhz bu hadisə müstəqillik uğrunda mübarizə tariximizin ən parlaq səhifəsidir və bununla da milli azərbaycançılıq ideologiyasının inkişaf dövrü başlandı. Bayrağımıza, mənəvi dəyərlərimizə sədaqətini ifadə edən Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu, bu yolda heç bir çətinlikdən, qadağadan qorxub çəkinmədi. Yalnız xalqına, millətinə sonsuz sədaqəti, məhəbbəti olan liderlər belə qətiyyətli addımlar atmağa qadirdilər.

### 1993-CÜ İL 15 İYUN - BÖYÜK XİLASKARLIQ QAYIDIŞI

Bu, o illər idi ki, XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşmişdi. Ölkədə hakimiyyət böhranı 1993-cü ilin iyununda kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə birbaşa hədəfə aldı. Beləliklə, 1991-1993-cü illər ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi.

Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən davamlı işğalı, getdikcə gərginləşən siyasi vəziyyət, əhalinin gündən-günə ağırlaşan sosial durumu ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu şərtləndirirdi. Cəmiyyətin bütün təbəqələri əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalqımız Heydər Əliyevin ətrafında sıx birləşməklə öz gələcək taleyini özü həll etmək niyyətində idi. Beləliklə, 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və Azərbaycan Xalq Cümhuriyyətinin taleyindən daha dəhşətli hadisələrin gözlənildiyi ölkəmizi bəlalardan, müsibətlərdən xilas etdi. Həmin gün, sözün həqiqi mənasında, ölkəmizin taleyində dönüş anı oldu, böyük qurtuluşa doğru mühüm addım atıldı. Xalqımızı nicata aparan yol bilavasitə həmin gündən başlandı.

### QURTULUŞDAN İNKİŞAFA: MÜDRİK SİYASƏTİN UĞURLU NƏTİCƏLƏRİ

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Həmin il "olum, ya ölüm" ayrıcında qalmış Azərbaycan Heydər Əliyev yorulmaz fəaliyyəti nəticəsində gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. 1993-cü il oktyabrın 3-də Ümummilli Lider xalqımızın böyük əksəriyyəti tərəfindən Prezident seçildi.

### HEYDƏR ƏLİYEVİN GÖRMƏK İSTƏDİYİ AZƏRBAYCAN

Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. Qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün fövqündən baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı ulu öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir. Prezident İlham Əliyevin bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb.

Ulu Öndərin Anım gününü qeyd etdiyimiz bu günlər tarixi günlərdir. Bu günlər Azərbaycan xalqı dövlətçilik tariximizin ən şərəfli səhifələrinin yazılmasına şahidlik edərək Zəfər gününü qeyd edir. Ümummilli Liderimizin torpaqlarımızın işğaldan azad olunması istiqamətində əsasını qoyduğu işin Onun layiqli davamçısı olan möhtərəm Prezidentimiz, Ali Baş Komandanımız cənab İlham Əliyev tərəfindən uğurla başa çatdırılması zəngin dövlətçilik ənənələrinə malik Azərbaycanın ən böyük qələbəsidir. Xalq-iqtidar-ordu birliyi şanlı qələbəmizi, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü əsasında həllini təmin etmiş oldu. Nə qədər ki Azərbaycan xalqı var, ulu öndərimizin parlaq xatirəsi daim qəlbimizdə yaşayacaq, onun mübariz əməlləri yüz illər bundan sonra da nəsillərə örnək olacaqdır.

***HƏMİD PƏNAHOV,***
***YAP Qazax rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən***

---

## Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqları davam edir

**Dekabrın 6-da YAP Xətai rayon təşkilatı Neapol küçəsi 8 və Cavanşir küçəsi 11 ünvanlarında yerləşən ərazi partiya təşkilatlarında hesabat-seçki yığıncaqlarını keçirib. Hesabat məruzələri dinlənilib, çıxışlar əsasında ərazi partiya təşkilatlarının hesabat dövründəki fəaliyyətləri qiymətləndirilib.**

Yığıncaqlarda çıxış edən YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı, ulu öndər Heydər Əliyevin anım günü ərəfəsində olduğumuzu önə çəkərək bildirib ki, zaman hadisələrə ən böyük dəyəri vermək üçün zəngin mənbədir: "İllər ötdükcə Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyasının nə qədər böyük olduğu görünür, yüksək qiymətləndirilir. Heydər Əliyevin fəaliyyətinə hansı sahədən diqqət yetirsək böyük bir araşdırma, tədqiqat mövzusudur. Bu ondan irəli gəlir ki, ümummilli lider Heydər Əliyev Vətənini, xalqını canından artıq sevməklə yanaşı, daim Azərbaycanın gələcəyi naminə çalışmış, onu necə görmək istədiyini açıqlamışdır."

Vüqar Rəhimzadə qeyd edib ki, Ümummilli Lider 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra xilaskarlıq missiyasını yerinə yetirməklə Azərbaycanı müstəqilliyinin yenidən bərpasının ilk illərinin xaosundan, anarxiyasından, ən əsası parçalanmaqdan, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən xilas etdi: "2003-cü ildən başlanan yol Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycan bu illər ərzində möhkəm təməl üzərində daha da gücləndi, möhkəmləndi, diplomatik qələbəsini təmin edərək döyüş meydanında da üstünlüyünü işğalçı Ermənistana və ona havadarlıq edən dövlətlərə nümayiş etdirdi. 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərimiz Heydər Əliyev yolunun, onun siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin düşünülmüş siyasətinin, xalq-iqtidar birliyinin, Azərbaycan Ordusunun gücünün nəticəsidir."



"Ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən biri Yeni Azərbaycan Partiyasının yaradılmasıdır" söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, partiyamız yarandığı gündən ümumxalq partiyasına çevrildi: "Bu gün partiyanın sıralarında 800 minə yaxın üzvün birləşməsi Heydər Əliyev ideyalarına sədaqətin, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə inamın və etimadın göstəricisidir. YAP daim gələcəyə doğru inamla irəliləyir. Bu gün böyük fəxr hissi ilə qeyd edirik ki, Heydər Əliyevin adı ilə bağlı olan, böyük inam və etimad göstərdiyi Yeni Azərbaycan Partiyası tarixi Zəfərimizin yaratdığı reallıqlara söykənərək VII qurultayını keçirməklə qarşısına yeni vəzifələr qoyub ki, hazırda onların həyata keçirilməsi istiqamətində bütün qüvvə və bacarıqlar səfərbər edilib." Sonra hesabat seçki-yığıncaqlarında təşkilati məsələlərə baxılıb. Camalxan Xanbutov Neapol küçəsi 8 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Mahirə Nəsirova sədr müavini, Arzu Azadəliyev Cavanşir küçəsi 11 ünvanında yerləşən ərazi partiya təşkilatının sədri, Rübabə Əhmədova isə sədr müavini seçiliblər. YAP Xətai rayon təşkilatının sədri Vüqar Rəhimzadə yeni tərkiblərə fəaliyyətlərində uğurlar arzulayıb.

# Bəşəriyyətin Heydər Əliyev dühası



**Hər bir tarixi şəxsiyyətin xidmətləri mənsub olduğu xalqın yaddaşında əbədi qalır, ancaq bununla məhdudlaşmır. Çünki elə dühalar var ki, onlar həm də bəşəri əhəmiyyətli işlər görürlər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev məhz həmin şəxsiyyətlərdəndir.**

Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Heydər Əliyevin timsalında biz əyani şəkildə görürük ki, şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir".

Bəli, bu gün müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş ümummilli lider Heydər Əliyev hər zaman fəxr edəcəyimiz, qürur hissi ilə xatırlayacağımız dahi tarixi yaradan şəxsiyyətdir. Bütün ömrünü dövlətimizin möhkəmlənməsinə, gələcək inkişafına sərf etmiş, əməlləri ilə xalqın sonsuz məhəbbətini qazanmış, bugünkü müstəqil, müasir, azad və firavan Azərbaycanın qurucusuna çevrilmiş Ulu öndər Heydər Əliyev haqqında danışmaq hər bir azərbaycanlıda təbii qürur hissi doğurur. İndi dünyanın harasında olursa-olsun Heydər Əliyev deyiləndə Azərbaycan, Azərbaycan deyiləndə Heydər Əliyev şəxsiyyəti gözlər önünə gəlir. Onun böyük qürurla söylədiyi: "Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!" sözləri bu böyük şəxsiyyətin, bu böyük insanın öz xalqına öz torpağına nə qədər bağlı olduğunu bir daha təsdiq edir. Həzrəti Məhəmməd əleyhissalamın hədislərinin birində buyurulur ki: "Həqiqət o deyil ki, onu yalnız sən təsdiq edirsən, həqiqət odur ki, onu sənin düşmənlərin də etiraf edir". Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü yalnız Azərbaycan xalqı deyil, hətta onun uğurlarına sevinməyənlər belə etiraf edir.



*SEYFƏDDİN ƏLİYEV,*
***YAP Masallı rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən***

ŞƏRH

## 15 İYUN 1993-CÜ İL - MİLLƏT ÜÇÜN QÜRURVERİCİ, DÜŞMƏN ÜÇÜN İSƏ ÖLDÜRÜCÜ FƏALİYYƏTİN İLK ADDIMI

1993-cü ilin 15 iyun günü xalqımız üçün yeni bir başlanğıc, ictimai tərəqqidə keyfiyyətcə yeni bir mərhələ idi. 15 iyun əsl qurtuluş tarixi olmaqla yanaşı, Azərbaycanda xaosdan, böhrandan, anarxiyadan inkişafa, sabitliyə doğru gedən yolun başlanğıcı idi. Bu tarixi yaradan isə yenə də Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa olan insan - çoxminillik dövlətçilik tariximizdə ilk dəfə ümummilli lider səviyyəsinə yüksəlmiş Heydər Əliyev idi. 15 iyun 1993-cü il Millət üçün qürurverici, düşmən üçün isə öldürücü fəaliyyətin ilk addımı idi. Çünki 1991-1993-cü illərin xaotik və rüsvayçı durumundan ilk etapda sabitliyə, oradan da dayanıqlı inkişaf müstəvisinə çıxmaq daha məntiqi olardı. Ulu öndər məhz bunu həyata keçirdi. Həmin müddətdə Azərbaycanın daxili sosial-siyasi və iqtisadi mühiti sabit ritmə düşdü. Bütün sahələrdə inkişaf özünü göstərdi. Səmərəli neft siyasəti sayəsində Heydər Əliyev ölkənin iqtisadi sisteminin bütün sahələrində dinamik inkişafı təmin edə bildi. "Əsrin müqaviləsi", Bakı-Ceyhanla bağlı prinsipial qərarın qəbul edilməsi və onun ardıcıl şəkildə həyata keçirilməsi, dövlət quruculuğu sahəsində konkret proqramların reallaşdırılması, xarici siyasətdə Azərbaycan modelinin formalaşdırılması, beynəlxalq təşkilatlarla aktiv diplomatiya müstəvisində əlaqələrin inkişaf etdirilməsi, əhalinin sosial təminatının ardıcıl olaraq gücləndirilməsi, ordunun hərbi qüdrətinin yüksələn xətlə artırılması birbaşa Heydər Əliyevin gərgin əməyinin nəticələridir.

## YENİ AZƏRBAYCAN PARTİYASI - MÜSTƏQİLLİYİMİZİN BƏLƏDÇİSİ

Ulu Öndərin ən böyük xidmətlərindən biri Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. 1992-ci il noyabrın 21-də təsis konfransı 550 nümayəndənin iştirakı ilə keçirilən YAP-ın sıralarında bu gün 800 mindən artıq üzvün birləşməsi Heydər Əliyev siyasətinə dəstəyin ifadəsidir. Yeni Azərbaycan Partiyasının əsas məqsədi, məramı Heydər Əliyev ideyalarını yaşatmaq, bu ideyalar əsasında Azərbaycanın inkişafının davamlılığını təmin etməkdir. Fəaliyyətə başladığı dövrdən bu günə qədər YAP tutduğu yola sadiq olmuş, daim Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə, əhalinin sosial rifah halının yaxşılaşmasına səy göstərmişdir. Söz və əməl birliyi YAP-ın cəmiyyətdə nüfuzunun artmasında stimulverici amildir. Partiyaya milyonların sevgisi, dəstəyi şəksizdir. 11 aprel prezident seçkiləri bunu bir daha təsdiqlədi. 2003-cü ildə qələbəsi ilə Heydər Əliyev siyasətinin uğurla davamına yol açan Prezident İlham Əliyev son 18 ildə gördüyü işlərə söykənərək 2008, 2013 və 2018-ci il prezident seçkilərində bir daha qələbə qazanmaqla Azərbaycanın davamlı inkişafını təmin edir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının əsas ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır. Keçirilən hər bir seçki prosesində hədəfini seçdiyi şüarla ifadə edən Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqillik tarixinin bələdçisidir. Möhtərəm Prezidentimiz partiyanın yaranmasının 25 illiyi münasibətilə keçirilən tədbirdə "Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu var" söyləyərək bildirmişdir ki, bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır.

## GERÇƏKLİYƏ ÇEVRİLƏN VƏDLƏR...

Bəli, 18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Dahi Öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq!

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin martın 5-də keçirilən qurultaydakı geniş nitqi çox zəngin və keçilmiş yola verilən qiymətlə, dərin təhlillə səciyyəvi oldu. Dövlət başçısı yüksək intellektual səviyyəsi ilə seçilən proqram xarakterli çıxışı zamanı ölkəmizin son illərdə keçdiyi tarixi yola bir daha nəzər saldı. Bildirdi ki, Azərbaycan bu gün bölgənin və regionun ən qüdrətli ölkələrindən birinə çevrilib: "Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq".

"Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!".

Bəli, bu gün də Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yol davam etdirilir. Azərbaycan inkişaf edir, ən uca zirvələrə qalxır, beynəlxalq aləmdə öz nüfuzunu daha da gücləndirir. Azərbaycan getdikcə qüdrətli və dayanıqlı ölkəyə çevrilməklə dünya miqyasında öz mövqeyini və yerini möhkəmləndirir. Və əməli fəaliyyəti, xalqına və Vətəninə məhəbbəti ilə ümumxalq sevgisi qazanan Prezident İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti müddətində Ulu Öndər tərəfindən qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir və uğurlara aparır. Bu uğurların əsasını qoymuş Ulu Öndər Heydər Əliyevin adı isə qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.



# Azərbaycanın ali təhsil sistemi dünyada ciddi qəbul ediləcək

**"İlk növbədə qeyd edim ki, Azərbaycan-Türkiyə təhsil əlaqələri hər il yüksələn xətt üzrə artır. Xatırladım ki, Azərbaycan hələ sovet dönəmi zamanından Türkiyə ilə ali təhsil sahəsində əlaqələr yaratmağa başlamışdır. Lakin bu əlaqələr mövcud dövrün siyasi tələblərinə uyğun aparılmış və müstəqil olmayıb. Şübhəsiz ki, bu da iki qardaş xalqın milli maraqlarının təmin edilməsi istiqamətində çox mənfi hal olub. Amma müstəqilliyi bərpa olunduqdan sonra Azərbaycan Türkiyə ilə təhsil sahəsində əməkdaşlığa daha böyük önəm verib". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.**

Onun sözlərinə görə, 1992-ci ilin 16-23 may tarixində Ankarada türk dövlətlərinin təhsil nazirlərinin toplantısı keçirildi və bu yığıncaqda təhsil sahəsindəki əməkdaşlıqdan, onun qarşısında duran problemlərdən bəhs edildi: "Belə ki, bu toplantıda qardaş dövlətlərin təhsil işində bir-birlərinə yaxından kömək etməsi, təhsil ocaqlarının qarşılıqlı təşkili, bu işlərdə qarşıda duran problemlər və bu problemlərin birgə aradan qaldırılması və s. məsələlər geniş müzakirə edilərək lazımi qərarlar verilmişdir".

"Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında təhsil sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün sonrakı illərdə də siyasi və hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində xeyli tədbirlər həyata keçirilmişdir".

"Son illərdə görülən işlərin nəticəsində Türkiyə tərəfinin yeni təlim texnologiyaları sahəsindəki bilik və bacarıqlarını Azərbaycan tərəfi ilə bölüşməyi, dərs vəsaitlərinin hazırlanmasında və müəllimlərin bu sahədə ixtisasartırmaları istiqamətlərində, həmçinin Azərbaycan tərəfinin Dünya Bankı və başqa beynəlxalq qurumlarla həyata keçirəcəyi layihə fəaliyyətlərinə hər cür texniki yardım göstərməsi olduqca müsbət haldır.

"Bir məqamı qeyd edim ki, Türkiyənin Qazaxıstan və digər bir neçə ölkə ilə birgə universiteti fəaliyyət göstərir. Bütün sahələrdə Azərbaycanla qardaşlıq münasibətində olan dost ölkənin ortaq ali təhsil müəssisəsi yaratması çox mühüm hadisədir. Qeyd edim ki, hazırda Türkiyədə 21 min azərbaycanlı gənc ali təhsil alır. Digər tərəfdən isə Türkiyə universitetlərinin əksəriyyəti dünya reytinqində öncül yerlərdədir və məzunları müasir standartlara, əmək bazarının tələblərinə tam şəkildə uyğun gəlir. Ona görə də onların təcrübəsindən yararlanmağa böyük ehtiyac var".

"Mövcud qanunvericiliyə görə Azərbaycan və Türkiyə birgə universitet yarada bilər. Belə bir ali məktəbin yaradılması üçün iki ölkə arasında təhsil müqavilələri olmalıdır ki, Azərbaycan və Türkiyə arasında da kifayət qədər çox istiqamətli müqavilələr var. Azərbaycanın birgə universitet təsis etmək təcrübəsinin olduğunu xüsusi ilə qeyd etmək istəyirəm. Belə ki, hazırda Azərbaycan və Fransa birgə universiteti - UFAZ yaradılıb və fəaliyyət göstərir. Türkiyə və Azərbaycanda təhsil sahəsində islahatlar həyata keçirilir".

Ekspert sözlərinə belə davam edib: "İnanıram ki, Azərbaycan-Türkiyə birgə ali məktəbin yaradılmasına dair danışıqlar olacaq və müsbət həll olunacaq. Xarici ölkə universitetlərinin olması ölkədə ali təhsil müəssisələri arasında rəqabət mühitini də formalaşdıra bilər. Eyni zamanda, xarici ölkə təcrübəsinin ölkəmizə gəlməsinə şərait yaradacaq. Digər tərəfdən Türkiyə universitetlərinin, özəl məktəblərinin əksəriyyəti dünya reytinqində öncül yerlərdədir. Məzunları müasir standartlara, əmək bazarının tələblərinə tam şəkildə uyğun gəlir. Ona görə də onların təcrübəsindən yararlanmağa böyük ehtiyac var".

"Mövcud qanunvericiliyə görə, Azərbaycan və Türkiyə birgə universitet və orta məktəb yarada bilər. Belə bir ali məktəbin yaradılması üçün iki ölkə arasında təhsil müqavilələri olmalıdır. Azərbaycanın birgə məktəb təsis etmək təcrübəsi var. Bakıda, "Ağ Şəhər" adlanan ərazidə Bakı Fransız Liseyi və UFAZ universiteti var. Bir neçə ölkə ilə birlikdə Azərbaycanda məktəblər yaradılıb. Seçinov adına Moskva Tibb Universitetinin, Lomonpsof adına Moskva Beynəlxalq Universutetinin Azərbaycanda filialları var. Azərbaycan-Türkiyə birgə məktəbi ölkədə orta təhsil müəssisələri arasında rəqabət mühitini də formalaşdıra bilər. Eyni zamanda xarici ölkə təcrübəsinin ölkəmizə gəlməsinə şərait yaradar".

"Yeni Türkiyədə bir neçə universitet var ki, bu və ya digər göstəricilərinə görə dünyada ciddi qəbul edilmiş universitetlərdəndir. Məsələn, Boğaziçi və Koç kimi universitetlər var ki, onları bitirmiş şəxslər, hətta İngiltərədə, Amerikada hər hansı imtahan vermədən işə girə bilərlər. Bu da həmin universitetlərdə tədrisin necə keyfiyyətli olduğunu göstərir. Hesab edirəm ki, Azərbaycanın da yeni ali təhsil müəssisələrinə ehtiyacı var. Təəssüf ki, Azərbaycanda hazırda dövlət, özəl və xüsusi xidmət universitetləri ilə birlikdə 50-dən çox ali təhsil müəssisəmiz var. Lakin biz beynəlxalq reytinqdə o qədər də ciddi qəbul edilən universitet imici formalaşdırmamışıq. Bunun əsas səbəbi ali təhsil müəssisələrimizin keyfiyyətli kadr hazırlamaması ilə yanaşı maddi-texniki bazasının zəif olması, eyni zamanda laboratoriya, yataqxana kimi resusların olmamasıdır. Bunlar birmənalı şəkildə prosesə təsir göstərir".

Kamran Əsədov son olaraq da bunları qeyd edib: "Hazırda Bakı şəhərində məkan, yer problemi var. Tələbə şəhərciyinin, eyni zamanda universitet kampusunun yaradılması o qədər də real deyil. Digər tərəfdən isə bunun üçün böyük vəsaitlər lazımdır. Lakin işğaldan azad edilmiş ərazilərin bərpası üçün Türkiyə nümunəsində universitet kampusları da olacaq. Çünki Türkiyənin 210-a yaxın universiteti var və demək olar ki, onların hər birinin kampusu var. Türkiyə universitetləri bizdəki kimi yalnız binadan ibarət deyil. Türkiyə universitetlərinin laboratoriyaları, yataqxanaları, təhsil alan tələbələrin yaşaması üçün bütün şərait var. Türkiyənin birbaşa, yaxından iştirakı ilə yaradılacaq universitetlər Azərbaycan təhsil sisteminin dünyaya inteqrasiyasına gətirib çıxaracaq. Azərbaycanın ali təhsil sistemi dünyada ciddi qəbul ediləcək".

"Hesab edirəm ki, biz bundan sonra rəqəmsal, eyni zamanda "ağıllı universitet" layihələrinə keçməliyik, hansı ki, bu artıq Türkiyədə var. Eyni zamanda, biz işğaldan azad edilmiş ərazilərdə daha çox tədqiqat universitetləri yaratmalıyıq. Düşünürəm ki, işğaldan azad edilmiş tarixi torpaqlarımızda universitet yaratmaq xatirinə universitet açmamalıyıq. Keyfiyyət əsas meyar olmalıdır. Bu nöqteyi-nəzərdən Türkiyənin yaxından iştirakı ilə yaradılacaq universitetlər daha çox gələcəyin ixtisaslı kadrlarının yetişdirilməsinə kömək olacaqdır".

"Eyni zamanda buraya xarici tələbələrin cəlb edilməsi üçün də imkanlar yaradılmalıdır. Ümumiyyətlə, Türkiyə-Azərbaycan iş birliyinə böyük ümidlərim var. İnanıram ki, istər Azərbaycan ali təhsil sisteminin təkmilləşdirilməsində, istərsə də maddi-texniki bazasının təkmilləşdirilməsində Türkiyə nümunəsində Azərbaycan universitetləri dünya reytinqində irəliləyə biləcəklər".

*Ayşən Vəli*

**TƏRS BAXIŞ**

# Əli Kərimli ilə bağlı deyilənlər bu gün də gündəmdədir

## *Mərhum AXCP funksioneri: "Təxribatlar törədib suyu bulandırmaq varsa, bu, xarici kəşfiyyata işləmək deməkdir"*



**AXCP sədri Əli Kərimlinin fəaliyyəti və partiyadaşlarına münasibəti haqqında bu günə qədər kifayət qədər insan çoxsaylı fikirlər səsləndiriblər. Maraqlıdır ki, onların həmin fikirlərinə rəğmən, Əli Kərimli hələ də siyasi səhnədə qalmaqda davam edir, üstəlik, hakimiyyətə qarşı sərsəm iddiaları ilə gündəm saxlayır, bu cəhdlərini təxribatçı əməlləri ilə davam etdirir.**

Yeri gəlmişkən, bu xüsusda AXCP-nin veteran üzvlərindən olmuş, artıq bu gün həyatda olmayan mərhum Seyid Mir Feyzullahın Əli Kərimlinin fəaliyyəti haqqında son fikirlərini xatırlatmaq olar. SİA xəbər verir ki, o, mənsub olduğu partiyada baş verənlər, təşkilatda üzləşdiyi durum və başqa məsələlər haqda danışıb. Seyid Mir Feyzullah deyib ki, Naxçıvandan olduğu üçün hər zaman AXCP sədri Əli Kərimlidən ögey münasibət görüb. O, partiya daxilində olan haqsızlıqlardan, sədr Əli Kərimlinin partiya üzvləri arasında yerlipərəstlik və bölücülük etməsi faktlarından ətraflı fikirlər ifadə edib.

### "Müharibənin gedişində və sonrasında ayrı-ayrı münasibətlər nümayiş etdirdi"

Sabiq cəbhəçi Kərimlinin Elçibəyin adı və imzası altında özünə xal topladığını da xatırladıb və onun sözlərinə görə, əgər Əli Kərimli bu gün Əbülfəz Elçibəyin məzarına gül qoyub özünü reklam etdirirsə, kənarda fərqli münasibət göstərir, onu ittiham edir, partiyanın uğursuzluqlarının təməlinin məhz mərhum Elçibəyin səhvləri üzündən yaşandığını iddia edir ki, bu da illər əvvəl öz liderinin "torbasını" söyüş və təhqirləri ilə tikən Kərimlinin aşkar simasını ortaya qoyur.

Lakin onun barəsində digər fikirlərin də səslənməsi maraq doğurur. Mərhum AXCP-çi Qarabağın işğaldan azad olunması yönündə davam edən 44 günlük müharibə dövründə Əli Kərimlinin davranışlarını belə şərh edib: "Əli Kərimli əvvəlcə "dəstək veririk" deyə bir ifadə səsləndirdi. Müharibənin gedişində və sonrasında ayrı-ayrı münasibətlər nümayiş etdirdi. Bu gün də cəbhəçi dostlarıma faktı deyirəm, amma anlamaq istəmirlər. Niyə? Bizim partiyada belə bir ənənə var. Hakimiyyətə qarşı hamı tənqidlər, ittihamlar səsləndirir. Amma partiya daxilində olan haqsızlıqları heç kim deyə bilmir. Mən xəstə olanda Aydın Məmmədov maddi dəstək göstərdi, amma partiyadan mənə bir qəpik də köməklik göstərmədilər. Halbuki, mənə dəfələrlə digər münasib işlər təklif edirdilər, amma mən partiyanı atıb-getmədim. Bunun müqabilində Əli Kərimli, ümumiyyətlə, məni saya-hesaba almadı".

### "Mən indiyə qədər onun bu sözlərinin şokundan ayıla bilmirəm"

Sabiq cəbhəçi xatırladıb ki, bir dəfə "Milli Şura"nın toplantısında çıxış edib və hər kəs onun çıxışını alqışlayıb, lakin sonradan Əli Kərimli onunla söhbətində bildirib ki, belə çıxışlar etməsin, çünki AXCP sədri digər cəbhəçilərin reputasiyalarının onunkundan üstün olmasını həzm edə bilmirdi: "O, mənə dedi ki, sən mənim çəkdiyimdən qabağa gedirsən. Mən indiyə qədər onun bu sözlərinin şokundan ayıla bilmirəm. Dəhşətə gəlirəm ki, bir insan bu qədər qısqanclıq göstərsin. Halbuki evdə qardaşlarım məni iddiam edirdilər ki, sən Əli Kərimlini bizdən çox istəyirsən, mən də deyirdim ki, siz ev üçün çalışırsınız, o isə el üçün. Amma indi görürəm ki, qardaşlarım haqlıymış. Əgər özünü lider hesab edən kəs demokratik ənənələrə sadiqlik göstərmirsə, ona əməl etmirsə, onun "demokratiyası" demokratiya ola bilməz".

Mərhum cəbhəçi ölümündən az əvvəl verdiyi müsahibəsində AXCP üzvlərinə müraciət də ünvanlayıb: "Əgər bu gün Qarabağ alınıbsa, bu ətrafda siyasət qurmaq və dəstəklər göstərmək lazımdır. Amma təxribatlar törədib suyu bulandırmaq varsa, bu, xarici kəşfiyyata işləmək deməkdir".

*Rövşən RƏSULOV*

# Vladislav Kondratyev: “Xəzəryanı ölkələrin enerji əməkdaşlığı yaxşı perspektivlər vəd edir”



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Rusiyalı iqtisadi analitik, politoloq Vladislav Kondratyev ”Caliber” analitik mərkəzinə müsahibəsində Xəzər dənizinin iqtisadi potensialı və perspektiv enerji layihələri haqda maraqlı fikirlər səsləndirib. Müsahibəni oxucularımızın diqqətinə çatdırırıq.**



*- Bu günlərdə baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Tehranda ikitərəfli əməkdaşlığın, xüsusən də neft-qaz sahəsində əməkdaşlığın gücləndirilməsinə yönəlmiş görüşlər keçirib. İran mətbuatının məlumatına görə, Şahin Mustafayevin İranın neft naziri Cavad Ovci ilə görüşündən sonra "yaxın vaxtlarda neft-qaz sektorunda əməkdaşlığa dair yeni sənədlərin imzalanacağı" açıqlanıb. Nəticədə noyabrın 28-də Aşqabadda İran, Azərbaycan və Türkmənistan arasında qaz tədarükünə dair üçtərəfli saziş imzalanıb. İmzalanma İran və Azərbaycan prezidentləri İbrahim Rəisi və İlham Əliyevin iştirakı ilə baş tutub. Xəzərin neft-qaz yataqlarının işlənilməsi Azərbaycan və İran üçün hansı perspektivlər vəd edir?*

- Energetika sahəsində istənilən sazişlər qarşılıqlı faydalıdır və yaxşı perspektivlər vəd edir. Amma ümid edirəm ki, iqtisadi effektlə yanaşı, siyasi təsiri də var, çünki biz bilirik ki, əvvəllər Xəzər regionunda dənizə bitişik ərazilərdə yerləşən yataqlarda ciddi ziddiyyətlər yaranıb. Həm Azərbaycanla İran arasında, həm də Türkmənistanla Azərbaycan arasında. Neft yataqları ilə bağlı problemin dövlətlər arasında digər sahələrdə ikitərəfli münasibətlərə mənfi təsir göstərdiyinə dair çoxlu misallar var. Ona görə də sazişin siyasi effekti var, tərəflər münasibətlərində mənfi amilləri aradan qaldırır və bununla da iqtisadi, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın əsasını qoyurlar.

Cavad Ovcinin yeni sazişlərin bağlanması məsələsi ilə bağlı sözlərinə gəlincə, xatırladaq ki, 2018-ci ilin martında Ruhaninin Bakıya səfəri zamanı Xəzər dənizinin dibindəki yataqların birgə işlənməsi ilə bağlı memorandum sazişi imzalanıb. Bu müqavilə, sonradan deyildiyi kimi, ”Alov” və ”Şərq” yataqlarına aiddir. Onlar qovşaqda yerləşir və mübahisəlidir, iki ölkə arasında bu yataqların mülkiyyətçiliyinin müəyyən edilməsi ilə bağlı münasibətlərin uzunmüddətli tarixi var. Bu yataqların hazırda fəaliyyətsiz olduğunu nəzərə alsaq, təbii ki, hər hansı sazişlər yataqların birgə işlənməsindən tərəflərin müəyyən iqtisadi səmərə alması üçün əlverişlidir. Xəzərin şimalında, Rusiya ilə Qazaxıstan arasında belə əməkdaşlıq edilir.

*- İran Xəzərdə unikal qaz yatağı kəşf etdiyini elan etdi və Avropanın qaz bazarının 20%-ə qədərini tutmağı qarşısına məqsəd qoydu. Çalus yatağında ilkin qiymətləndirmə işləri göstərdi ki, onun ehtiyatları təxminən 3,4 trilyon kubmetr təşkil edir. Bununla belə, inkişaf perspektivləri bir sıra ziddiyyətlər və intriqalarla doludur. Bu yataqdan qaz Avropa ölkələrinə gedəcəkmi? Bu layihənin reallaşma ehtimalı nə qədərdir?*

- Ümumiyyətlə, ekspertlər belə bəyanatlara kifayət qədər şübhə ilə yanaşırlar, çünki İran ilk dəfə deyil ki, Xəzər dənizində bəzi yataqların kəşfi və işlənməsi barədə açıqlama verir. Burada mütəxəssislərin nəzərə aldığı bəzi çətinliklər var. Hər şeydən əvvəl dənizin dərinliyidir. Burada hər hansı sahənin inkişafı böyük maliyyə investisiyaları ilə bağlıdır. Amerikanın və ümumiyyətlə Qərbin İrana qarşı tətbiq etdiyi geniş sanksiyalar kontekstində bu cür yataqların işlənməsi çox problemlidir. İranın isə dərin sularda qazma işləri üçün müvafiq təcrübəyə malik bəzi Qərb şirkətlərini cəlb etmək imkanı yoxdur. Ona görə də onların Xəzərdə işləyən yeganə platforması ”Əmir Kəbir”dir.

Baxmayaraq ki, bu, ”yaşıl iqtisadiyyat”a qlobal analitik keçidi və Aİ-nin qaz nəqlinə yanaşmasının dəyişməsini nəzərə alsaq, uzaq gələcəyə aid məsələdir. Ona görə də artıq mövcud təchizatçılar elə vəziyyətdədirlər ki, gələcəkdə öz təbii qazının ixracının necə inkişaf edəcəyinə əmin deyillər. Bu baxımdan, tezliklə Avropaya qaz nəqlinə başlamaq üçün İrana güvənməyə dəyməz.

*- Hələ oktyabr ayında Rusiyanın xarici işlər naziri Sergey Lavrov iranlı həmkarı ilə görüşündə İranın Xəzərin hüquqi statusu haqqında konvensiyanı tezliklə ratifikasiya edəcəyinə ümid etdiyini bildirmişdi. İran istisna olmaqla, bütün Xəzəryanı ölkələr ratifikasiya edib. İranı nə gözləyir? Tehran bu prosesi niyə ləngidir?*

- Səbəbin konkret nə olduğunu söyləmək bir qədər çətindir. Əvvəla, İran tərəfi bu konvensiyanın ratifikasiyasından sonra İranın Xəzər regionunda mövqelərini itirəcəyindən narahatdır. Çünki o, İran tərəfinin uzun müddət etiraz etdiyi akvatoriyanın dibinin bölünməsi prinsiplərini nəzərdə tutur. Onlar kondominium, resursların birgə istifadəsini və dənizin hər biri 20%-lik bərabər sahələrə bölünməsini təklif etdilər.

O zaman müxalifət siyasətçiləri İranın regionda minilliklər boyu formalaşan mövqelərindən və indi yeni parlamentdə daha mühafizəkar mövqedən əl çəkəcəyindən ehtiyat edərək sazişə qarşı çıxdılar. Ruhaninin siyasətinə qarşı çıxanlar mövqelərini gücləndirdilər. Ona görə də bu gün onlar parlamentdə hakimiyyətdədirlər və çox güman ki, mövqelərini belə asanlıqla dəyişmək ehtimalı yoxdur. Bunun üçün ölkənin yeni rəhbərliyi onları konvensiyanın İran tərəfinin maraqlarına uyğun olduğuna inandırmalıdır.

**_Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb._**

*- Xəzər dənizinin cənub hissəsində narkotik vasitələrin keçirilməsinə cəhdlər qeydə alınır. Azərbaycan sərhədçiləri İranla sərhəddə qaçaqmalçılığı dayandıra biliblər. Lakin İkinci Qarabağ müharibəsindən sonra belə hallar daha tez-tez baş aşkar olunmağa başladı. Bu problemdən çıxış yolunu necə görürsünüz?*

- Xəzər regionunda, o cümlədən Azərbaycan sərhədində narkotik qaçaqmalçılığı problemi kifayət qədər kəskindir. Çox vaxt Azərbaycanın sərhədçiləri qaçaqmalçıların saxlanması barədə məlumat verirlər ki, İran narkotikləri daha çox güman ki, başqa ölkələrə tranzit üçün Azərbaycan ərazisinə çatdırmağa çalışır. Yaxşı, bu məsələ ilə artıq istintaq orqanları məşğul olacaq. Düşünürəm ki, Azərbaycan sərhəddəki ərazilərə nəzarəti bərpa etdiyi üçün belə hallar tez-tez baş verib, ona görə də qaçaqmalçıların saxlanması ilə bağlı xəbərlər daha çox yayılıb.

Xəzəryanı dövlətlər arasında hər hansı sazişə gəlincə, sonuncu- V Xəzər sammiti zamanı ölkə prezidentləri narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində Xəzəryanı dövlətlər arasında əməkdaşlığa dair protokolun hazırlanması ilə bağlı tapşırıqlar veriblər. Bu protokol 2010-cu ildə Bakıda imzalanmış əməkdaşlıq və təhlükəsizlik haqqında sazişə əlavə olaraq gəlir. Bu protokol çərçivəsində müəyyən mexanizmlər olmalıdır, Xəzəryanı dövlətlərin səlahiyyətli orqanları narkotik qaçaqmalçılığına qarşı birgə mübarizə aparacaqlar.

Hesab edirəm ki, Əfqanıstandakı vəziyyətin dəyişməsi kimi faktlara hələ də diqqət yetirməyə dəyər. Dünya mətbuatının yazdığına görə, son aylarda orada narkotiklərin becərilməsi ümumilikdə artıb, təbii ki, Əfqanıstan bazarında narkotiklərin tədarükü də yaqin ki, artır. İran tərəfi böyük İran-Əfqanıstan sərhədini nəzərə alaraq tez-tez külli miqdarda narkotik partiyasının ələ keçirildiyi barədə məlumat verir ki, narkotacirlər bu partiyaları Avropaya göndərmək üçün, o cümlədən Azərbaycandan keçirməyə çalışırlar. Təbii ki, sərhədlərin uzunluğuna görə hesab edirəm ki, İran sərhədçiləri bütün mövcud kanalları bağlaya bilməz. Ona görə də istənilən halda müəyyən həcm sərhəddən keçə və artıq Xəzər regionu ölkələrinin ərazisində görünə bilər. Ona görə də burada əməkdaşlıq təbii ki, zəruridir.

***Tərcümə - Elçin Bayramlı***

# Zülfü adlı keçəl qonşumuz...

**Yəqin ki, eşitmiş olarsınız, dekabrın 9 və 10-da ABŞ-da Ermənistanın da dəvət aldığı ”Demokratiya zirvəsi” adlı virtual bir görüş keçiriləcək. Burada, özlərinin də dediyi kimi, onların bu tədbirə dəvət edilməsi ”erməni demokratiyası”nın böyük bir qələbəsi kimi qəbul edilməlidir. Təsəvvür edin, yenə də ermənilərin dediyinə görə, o boyda ABŞ kimi ölkənin prezidenti özü Ermənistanın bu tədbirdə iştirakını ”israr edib”. Ona görə də, burada ermənilərin ”qürurulanıb” və hətta qonşularına ”gözdağı” belə verməsi başadüşülməlidir.**

Amma deyim ki, bu görüşün əsil mahiyyətinin nədən ibarət olacağı çoxları kimi, elə mənim üçün də maraqlıdır. Yəni Amerikaya dəvət olunan bu qədər ölkə nümayəndələrinə Vaşinqton iki gündə nələri anladacaq? Məsələ bundadır ki, o vaxt ABŞ-da keçirilən prezident seçkiləri çox ciddi qanun pozuntuları ilə yaddaşlardan hələ də silinməyib. Qeyd edilməlidir ki, bir çox analitiklər həmin seçki kampaniyasını ABŞ tarixində ən qeyri-demokratik və ən çirkli seçki kampaniyası kimi xarakterizə edirlər.

Əslində, deyim ki, ermənilər gərək ki, bundan xəbərsiz olmamalıdırlar. Onu da qeyd edək ki, həmin ərəfədə, yəni seçki kampaniyası zamanı Cozef Bayden qalib gələcəyi təqdirdə ölkədə ”Demokratiya zirvəsi” adlı tədbir keçirəcəyinə söz vermişdi.

...Etiraf edim ki, bu, bizim tərəfdə çətin məqamla üzləşən birinin yaradana dua edib məqsədə çatacağı təqdirdə nəzir-niyaz paylayacağına bənzəyir.

İndi çox güman ki, imicmeykerlər Baydenə həmən anı xatırladaraq bu yolla onun kifayət qədər ləkələnmiş və eyni zamanda gündən-günə aşağı düşən nüfuzunu bir az düzəltmək qərarına gəliblər.

Amma maraqlıdır ki, prezident Cozef Baydenin özü zirvə sammiti ilə bağlı başqa fikir səsləndirib. Belə ki, o ”Demokratiya zirvəsi”nin əsas məqsədinin Çin və Rusiyanı ”tutmaqdan ibarət olacağı”nı bildirib. Təbii ki, demokratik bir ölkə prezidentinin belə açıqlamasını ”malalamağa çalışan” təşkilatçılar sammitin məqsədinin ”avtoritarizmdən qorunmaq, insan hüquqlarına hörmət və təbii ki, korrupsiyaya qarşı mübarizə” kimi konsepsiyaları təbliğ etməkdən ibarət olacaını deyiblər. Bundan başqa, bu görüşə dəvətli ölkələrin liderləri öz ölkələrində insanların həyatını yaxşılaşdırmaq və dünyamızın üzləşdiyi ən mühüm problemlərə cavab vermək öhdəliyi də götürəcəklər.

...Yeri gəlmişkən bildirək ki, Vaşinqtonda keçiriləcək zirvə sammitinə 110 ölkə dəvət olunub və təbii ki, Çin və Rusiya bu siyahıda yoxdur. Amma maraqlıdır ki, Çin dəvət olunmasa da, bu ölkənin ”ayrılmaz hissəsi” olan Tayvan üçün ”dəvət göndərilib”.

Bu arada bir haşiyə çıxaraq xatırladaq ki, yaxınlarda ABŞ, Böyük Britaniya və Avstraliya birlikdə ”AUKUS” adlanan bir alyans yaradılıb. Təbii ki, burada əsas təklif Vaşinqtondan gəlib və alyansa əsas məqsəd kimi Hind-Sakit okean regionunda Çinlə qarşıdurmanı gücləndirmək tapşırılıb. Qeyd edilməlidir ki, Cinin alyansın hər hansı bir fəaliyyətini cavabsız qoyacağı elə də inandırıcı görünmür. Belə ki, Cin artlq bu istiqamətdə müəyyən addımlar atmaqdadır.

...Amma bu arada deyim ki, Tayvanın da... elə Ermənistan kimi ”demokratik bir ölkə” olduğunu indi öyrənirəm.

...Onu da deyim ki, bu çox vaxt belə olur. Məsələn, bizim



anadan keçəl doğulan yaşlı bir qonşumuz var. Amma nə olsun ki, keçəl doğulsa da, adı .Zülfüdür.

***Ağasəf Babayev***

Səs
7 dekabr
2021-ci il

# Damarları təmizləyən 5 qida



Xolesterinin yüksək səviyyədə olması damarların sağlamlığına ciddi ziyan vurur. Artıq xolesterin damarlarda yığılaraq onları daraldır, zəif, kövrək, partlamaya meyilli olan edir. SİA xarici mətbuata istinadən xəbər verir ki, bu proses ürək və ya beyin damarlarında baş verdikdə, infarkt və insultun riski kəskin artır. Nəzərinizə çatdıraq ki, bütün dünya üzrə ölümün ilk səbəbi ürək-damar sistemi xəstəlikləridir ki, insult və infarkt əksər hallarda onların fəsadı kimi meydana çıxır.

Xolesterin yüksək səviyyədə olanda onu normallaşdırmaq məqsədi ilə xüsusi preparatlar - statinlər təyin olunur. İnsan bu preparatları ömrünün sonuna qədər qəbul etməlidir. Lakin istənilən dərmanın uzun müddət ərzində qəbulu orqanizmə bu və ya digər formada ziyan vurur. Məsələn, statinlər böyrəklərin sağlamlığına mənfi təsir edir.

Bu vəziyyətdə orqanizmə statinlərin təsirinə oxşar təsir edən bəzi qida məhsulları köməyimizə çatacaq. Saglamolun.az Rusiya KİV-lərinə istinadla bildirir ki, tanınmış rusiyalı həkim Aleksandr Myasnikov belə qidaların adını açıqlayıb. Bu yabanı düyü, çərəzlər, dəniz məhsulları, kətan yağı və sarımsaqdır. Bu məhsulların müntəzəm istehlakı xolesterinin səviyyəsini aşağı salır. Həmçinin həkim bildirib ki, fiziki aktivlik və qırmızı çaxırın az miqdarda istehlakı pis xolesterinin daha tez parçalanması və orqanizmdən xaric edilməsinə yardım edir.



# Messinin 30 milyon avroluq oteli sökülür!

PSJ-nin futbolçusu Lionel Messinin Barselonadakı oteli sökülə-cək. Qol.az "El Confidencial" nəşrinə istinadən xəbər verir ki, buna şəhər rəhbərliyi qərar verib. Bina şəhər standartlarına uyğun olmadığına görə sökülməsi planlaşdırılır.

Qeyd edək ki, Messi 77 otaqdan ibarət oteli 2017-ci ildə 30 milyon avroya alıb.

# Məşhur model tısbağa qəhrəmanı oldu



41 yaşlı braziliyalı model Gisele Bundhen ABŞ-ın Florida ştatında çimərlikdə qaçarkən tısbağanın balıq toruna düşdüyünü görüb. SİA xarici mətbuata istinadən xəbər verir ki, dərhal köməyə qaçan maniken heyvanı tordan xilas edib. O, sonra tısbağanı qucaqlayaraq okeana buraxıb.



# Oğurladıqları avtomobili hissələrə ayırıb satan şəxslər saxlanılıb

Bakıda avtomobil oğurlayan şəxslər tutulub. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Noyabrın 29-da paytaxt sakini olan bir nəfər Binəqədi Rayon Polis İdarəsinin 5-ci Polis Bölməsinə müraciət edərək bildirib ki, ona məxsus "Qaz-3110" markalı avtomobil Dərnəgül qəsəbəsi ərazisində naməlum şəxslər tərəfindən qaçırılıb.

Bölmə əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində həmin nəqliyyat vasitəsini qaçıran İsmayıllı rayon sakinləri Nurlan Əliyev və Vaqif Vəlibəyov saxlanılıblar.

Araşdırma zamanı müəyyən edilib ki, hər iki şəxs əvvəlcədən planlaşdırdıqları kimi evakuator xidməti göstərən şirklətlərdən birinə zəng edərək avtomobilin nasaz olduğunu bildiriblər. Daha sonra onlar özləri ilə gətirdikləri saxta dövlət qeydiyyat nişanı və sənədləri evakuatorun sürücüsünə göstərərək nəqliyyat vasitəsini İsmayıllı rayonuna aparıblar. Nurlan Əliyev və Vaqif Vəlibəyovun məqsədi həmin avtomobili ehtiyat hissələri formasında satmaq olub. Oğurlanan avtomobil İsmayıllı rayonunda hissələrə ayrılan formada Nurlan Əliyevə məxsus təmir sexindən aşkar olunaraq götürülüb.

Saxlanılan hər iki şəxs barəsində 5-ci Polis Bölməsində toplanan materiallar araşdırmaların davam etdirilməsi üçün Binəqədi Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə göndərilib. Zəruri istintaq tədbirləri davam etdirilir.



# Rusiyalı həkimdən ŞOK açıqlama: Bu içki kişini qadına çevirir!

Rusiyalı həkim Aleksey Kovalkov bildirib ki, pivənin müntəzəm istehlakı kişi orqanizmini dəyişir və onu qadın orqanizminə bənzətməyə başlayır. Rusiyanın nüfuzlu mətbuat orqanlarının yazdığına görə, pivənin tərkibində olan maddələr kişi orqanizmində testosteronun ifrazını azaldır və əksinə qadın hormonlarının (estrogenlər) ifrazını artırır. Məsələ burasındadır ki, kişi orqanizmində çox az miqdarda olsa da qadın hormonları sintez olunur və bu hormonlar kişinin sağlamlığında vacib rol oynayır. Məsələn, beyinin fəaliyyətinə, qanda şəkərin səviyyəsinə təsir edir, sümükləri daha möhkəm edir, prostat vəzi xəstəliklərindən və o cümlədən prostat vəzi xərçəngindən qoruyur və s. Lakin kişi orqanizmində qadın hormonlarının ifrazı artanda bu hormonal və s. pozulmalara səbəb olur. Yeri gəlmişkən qadın orqanizmində də az miqdarda əsas kişi hormonu olan testosteron sintez olunur.

"Pivənin tərkibində fitoestrogenlər (hormonabənzər maddələr - red.) var. Onların təsirindən testosteronun səviyyəsi azalır, sonsuzluq, impotensiya inkişaf edə bilər. Bu səbəbdən bütün diyetoloqlar kişilərə qəti şəkildə pivə içməyi tövsiyə etmirlər", - Kpvalkov bildirib.

Həmçinin həkim qeyd edib ki, burada pivənin miqdarı - bir və ya 10 butulka rol oynamır. Əsas təhlükə bu içkinin müntəzəm qəbulundadır.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600